

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 22 (24.457)

14 iyun 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Milli Qurtuluş Günü –

## bütöv, suveren Azərbaycan naminə yolun başlanğıcı



Tarixdə elə günlər olur ki, əbədi, silinməz iz buraxır xalqın yaddaşında, illər, qərinələr, hətta əsrlər ötsə belə yaddan çıxmır, unudulmur, mənəvi borca, məsuliyyətə çevrilir. Həmin tarixi təbliğ etmək, gələcək nəsillərə düzgün aşılamaq bu günün əzəmətini, mübarəkliyini daha da artırır. Məhz hər bir azərbaycanlı üçün şərəf, qürur hissi ilə daim xatırlanan həmin tarixi gündən 32 il ötür artıq. Xalqımızın taleyində əbədiyyət günəşinin parladığı 1993-cü ilin 15 iyun günü...

Məşhur bir aforizmdə deyilir ki, tarix şəxsiyyətləri deyil, şəxsiyyətlər tarixi yaradır! Bəli, ictimai-siyasi hadisələrin cərəyan etdiyi ayrı-ayrı dövrlərə, ölkələrin həyatına, zaman-zaman dəyişilən dünya düzəninə nəzər yetirəndə aydın olur ki, tarix dahi insanların ideya və əməllərinin üzərində yaranır, qərar tutur. Məhz Ümummilli Liderimiz Heydər Əliyev də belə nadir görkəmli şəxsiyyət, fenomen insanlardan biridir ki, onun əbədiyaşar ideyaları üzərində müasir, müstəqil, qüdrətli, qalib, bütöv, suveren Azərbaycan bərqərar olunub. Bu baxımdan Ulu Öndərin adı ilə bağlı olan 15 iyun günü Azərbaycanın dövlətçilik tarixində çox mühüm əhəmiyyətə, həlledici rola malikdir. Bu mühümlüyü artıran əsas məqamlardan biri isə Azərbaycanın öz müstəqilliyini bərpa etdikdən sonra onu yenidən itirmək təhlükəsi ilə üz-üzə qalması və həmin çətin məqamdan üzüağ çıxması idi. Belə ki, həmin dövrdə ölkəyə rəhbərlik edənlərin siyasi səriştəsizliyi, idarəçilik qabiliyyətsizliyi Azərbaycanın mövcudluğunu, sözün həqiqi mənasında, sual altında qoyurdu. Bir tərəfdə xaos, anarxiya, özbaşınalıq, digər yanda torpaqlarımızın işğal olunması xalqımıza müstəqillik sevincini yaşamaq imkanı verməmişdi. Belə çətin və mürəkkəb bir dövrdə Azərbaycan xalqı üzünü əsl xilaskarına Ulu Öndər Heydər Əliyevə tutaraq öz varlığını qorudu. ***“Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır”***, – deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: ***“Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz”.*** Dahi şəxsiyyətin müdrik siyasətinin nəticəsi idi ki, ölkəmiz bir dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsindən xilas oldu, müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhran aradan qaldırıldı və uçurumun bir addımlığından qayıdan Azərbaycanda inkişafın təməli qoyuldu...

**Səhifə ⇨ 2**




# Milli Qurtuluş Günü –

## bütöv, suveren Azərbaycan naminə yolun başlanğıcı

(əvvəli 1-ci səhifədə)

***Azərbaycanın müstəqil dövlət quruculuğu tarixində həlledici dövr***

Milli Qurtuluş Günü haqqında danışan zaman Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi 1990-1993-cü illəri yada salmamaq, həmin mərhələni Azərbaycanın müstəqil dövlət quruculuğu tarixində ən mühüm, həlledici dövr kimi xarakterizə etməmək olmaz. Məhz bu illərdə verilən tarixi qərarlarla müstəqil Azərbaycanın təməl prinsipləri formalaşdırılıb, ölkəmizin gələcək inkişafının əsasları qoyulub. Həmin dövrdə Azərbaycanda baş verən hadisələr ölkəni faktiki olaraq müstəqilliyini itirmək həddinə gətirib çıxarmış, vətəndaş müharibəsi başlamışdı. 1993-cü il iyunun 4-də baş verən Gəncə hadisələri isə qardaş qırğını ilə bərabər, ölkəni real olaraq parçalanmaq təhlükəsi ilə də üz-üzə qoymuşdu. Ölkə Prezidenti İlham Əliyev həmin dövrü belə xarakterizə edib: ***"O ağır dövrdə xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev, demək olar ki, gənc, müstəqil Azərbaycan dövlətinin, sözün əsl mənasında, xilaskarına çevrilmişdi. Çünki müstəqilliyimiz əldən gedirdi, torpaqlar əldən gedirdi, ölkəmizin müxtəlif yerlərində separatçılıq baş qaldırıb gedirdi, ölkə parçalanma ərəfəsində idi, ölkədə bir çox silahlı birləşmələr faktiki olaraq müxtəlif istiqamətlərdə hakimiyyəti və ya hakimiyyət orqanlarını zəbt etmişdilər. Özbaşınalıq, quldurluq, xaos, anarxiya – 1993-cü ilin Azərbaycanı bax budur. Yaqin ki, gənc nəsil indi bunu kitablardan öyrənə bilir. Amma biz – o dövrü yaşamış insanlar o günləri yaxşı xatırlayırıq və heç vaxt o günləri unutmamalıyıq".*** Bəli, məhz həmin unudulmaz anlarda, çətin məqamda xalq ayağa qalxdı, təkidli tələblə görkəmli dövlət xadimi Heydər Əliyevi 1993-cü il iyunun 15-də yenidən siyasi hakimiyyətə qaytardı. Bununla da ölkəmizdə milli qurtuluş hərəkatının əsası qoyuldu və 15 iyun müstəqil Azərbaycan dövlətinin tarixinə "Milli Qurtuluş Günü" kimi daxil oldu. Azərbaycan Respublikasının Milli Məclisi 1997-ci il 27 iyun tarixli Qərarı ilə dahi şəxsiyyətin ölkə rəhbərliyinə qayıdışı gününü rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etdi.

Görkəmli dövlət xadiminin ali hakimiyyətə qayıdışı ilə ölkəmizdə mühüm işlər görüldü. Qısa müddətdə əsas problem sayılan daxili sabitlik bərqərar edildi, cəbhədə atəşkəsə nail olundu, hüquqi-demokratik dövlət quruculuğu istiqamətində potensial baza yaradıldı. Eyni zamanda iqtisadi sahədə mühüm addımlar atıldı, xarici neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı ki, nəticədə, Azərbaycanın iqtisadi inkişafını şərtləndirən layihələrin həyata keçirilməsinə başlanıldı. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Bununla da Azərbaycanın bugünkü və gələcək uğurlarının möhkəm təməli qoyuldu. Ümumilikdə, Azərbaycan dünya iqtisadi sistemində öz layiqli yerini tutdu, beynəlxalq təşkilatlarda uğurla təmsil olundu, dünyada etibarlı tərəfdaş kimi tanındı, ikitərəfli və çoxtərəfli münasibətlərini uğurla inkişaf etdirdi. Bununla bərabər, ölkəmizin beynəlxalq təşkilatlarla əlaqəsi təmin olundu, müasir hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiya qəbul edildi. Nəticədə, çox qısa müddətdə müstəqil Azərbaycan özünün sosial, iqtisadi, siyasi və mədəni həyatında ciddi uğurlar qazandı.

***Milli Qurtuluşdan tarixi Zəfərə, dövlət suverenliyinə***

***"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"***, – deyən dahi şəxsiyyət özünün qurub yaratdığı, şah əsəri sayılan müstəqil Azərbaycanın taleyini Ulu Öndər məktəbinin layiqli davamçısına əmanət edib. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında böyük uğurlar qazanır. Dahi liderin parlaq ideyalarını layiqincə reallaşdıran Azərbaycan Prezidenti siyasi fəaliyyətini ölkəmizin heç bir güc mərkəzindən asılı olmayaraq, müstəqil siyasət aparmasına, hər bir sahədə xalqın mənafeyinin qorunmasına həsr edib. Məhz bunun nəticəsidir ki, Azərbaycan ötən dövrdə Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz, TANAP, TAP kimi nəhəng iqtisadi layihələrlə Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasına böyük töhfələr verir. Eyni zamanda dövlət başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin rentabelliyinin artırılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Həyata keçirilən praqmatik, məharətli diplomatiyanın nəticəsidir ki, bu gün Azərbaycan Orta dəhlizin mühüm hissəsi kimi Asiya ilə Avropa arasında körpü yaradır, Avrasiyanın mühüm nəqliyyat mərkəzinə çevrilir. Dünyanı bürüyən müharibələrə, qlobal böhrana baxmayaraq, Azərbaycanda sabitlik, əmin-amanlıq hökm sürür, uğurlu inkişaf təmin edilir, regionun geosiyasi mənzərəsi tam mənasında ölkəmizin xeyirinə dəyişir.

> **Prezident İlham ƏLİYEV:**
>
> ***"O vaxt Azərbaycanda xaos hökm sürürdü. Bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idi. Bu gün Azərbaycanda sülhdür, əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycan vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Bu gün Azərbaycanda milli birlik, milli həmrəylik mövcuddur. O vaxt Azərbaycanda total böhran hökm sürürdü. Bu gün dünyanın aparıcı dairələri etiraf edir ki, Azərbaycan ən qüdrətli ölkəyə çevrilməkdədir. Bütün bunları edən, bütün bunları yaradan xalqın dəstəyinə arxalanan xalqımızın Ümummilli Lideri Heydər Əliyev olmuşdur. Bütün bunlar onun zəhmətidir, onun əməyidir və bu gün biz xalqla birlikdə Azərbaycanı daha da inamla, daha da sürətlə inkişaf etdiririk".***

Prezident İlham Əliyevin məqsədyönlü və milli maraqlara cavab verən xarici siyasəti nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilib və ciddi uğurlara imza atır. Hazırda BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, "D8", TDT və digər nüfuzlu beynəlxalq və regional təşkilatlarla səmərəli əməkdaşlıq aparılır. 120 dövlətin təmsil olunduğu, BMT-dən sonra ikinci böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına 4 il sədrlik etməsi, COP29-a ev sahibliyi missiyasını uğurla yerinə yetirməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunun və qüdrətinin əyani göstəricisidir. Respublikamız bu gün 3 ölkə – Türkiyə, Özbəkistan və Rusiya ilə strateji müttəfiq, Çin kimi dünya iqtisadiyyat nəhəngi ilə hərtərəfli strateji tərəfdaşdır.

Bütün sahələr üzrə regionun söz sahibinə, Cənubi Qafqazın lider ölkəsinə çevrilən Azərbaycan 30 ilə yaxın erməni işğalı altında olan torpaqlarını 2020-ci ildə 44 gün ərzində azad etdi, ərazi bütövlüyümüz təmin olundu. Zəfər Günü kimi tariximizə əbədi həkk olunan noyabrın 8-də Qarabağın gözü Şuşa şəhərinin işğaldan azad olunması ilə ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Ulu Öndərin müqəddəs arzularını gerçəkləşdirdi, ata vəsiyyətini yerinə yetirdi. 2023-cü il 19-20 sentyabr tarixlərdə lokal xarakterli antiterror tədbirləri ilə ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam təmin olundu.

Bu gün Azərbaycan xalqı ərazi bütövlüyü, suverenliyi tam təmin olunmuş qalib ölkənin nümayəndələri kimi böyük fəxr, qürur hissləri ilə Milli Qurtuluş Gününü qeyd edir, bu xoşbəxtliyin memarı Ümummilli Liderin xatirəsini daim əziz tutur, ehtiramla anır. Hər bir vətəndaş Ulu Öndərin müqəddəs amallarına, əbədiyaşar ideyalarına sadiqliyini, sədaqətini Prezident İlham Əliyevin yürütdüyü siyasətə davamlı dəstəkdə görür və bununla da inamlı, əminli gələcəyini təmin edir. Məhz 1993-cü ildə təməli qoyulan yolun təntənəsidir ki, bu gün üçrəngli Dövlət Bayrağımız bütün Qarabağ ərazisində, Laçında, Şuşada, Xocalıda, Xankəndidə, Qazaxın 4 kəndində dalğalanır, torpaqlarımıza soydaşlarımızla bərabər əbədi bahar qayıdır. Hər birimizin işində, fəaliyyətində ən ümdə vəzifə Ulu Öndərin xatirəsinə ehtiram əlaməti olaraq müstəqilliyini qoruyub yaşatdığı Azərbaycanın bu möhtəşəm qalibiyyətinə layiq olmaq, bütövlüyünü, suverenliyini qoruyub saxlamaq naminə dövlət başçısının ətrafında daha da sıx birləşməkdir. Necə ki beynəlxalq ictimaiyyət 44 günlük Vətən müharibəsində bu həmrəyliyin ifadəsinin ən yüksək formada şahidi olmuşdu və bundan sonra da şahidi olmaqda davam edəcək. Prezident İlham Əliyevin bu il mayın 10-da Ağdam rayonunun Kəngərli kəndinə köçən sakinlərlə görüşündə dediyi kimi: ***"Bunun əsas səbəbi Azərbaycan xalqının əyilməz ruhudur. Bax mən bunu sizə açıq deyirəm. Hər birimizin payı var. Əlbəttə, Ali Baş Komandan, bütün əməliyyatlara və bütün işlərə rəhbərlik edən şəxs kimi mənim payım da var, təbii olaraq, amma hər birimizin. Çünki xalq arxamda durmasaydı, əgər müharibə dövründə hər hansı bir tərəddüd hiss olunsaydı, yaxud da ki, cəmiyyətdə hər hansı bir fikir ayrılığı olsaydı, bu Qələbəni belə şəraitdə, belə ağır vəziyyətdə qazanmaq mümkün olmazdı. Şəhidlər dəfn olunurdu, şəhidlərin anaları, ataları, yaxınları deyirdilər ki, dayanma. Bilirsiniz bu nədir?! Xalqımız böyük xalqdır. Biz haqlı olaraq xalqımızla fəxr edirik, sizinlə fəxr edirik".***

**✍ Nail ƏSGƏROV**

# Böyük sənətə yüksək qiymət



İsa HƏBİBBƏYLİ
*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı bəzi tədbirlər haqqında"kı 2025-ci il 22 may tarixli Sərəncamı ölkəmizdə milli mədəniyyətimizin tarixi ənənələrinin yaşadılmasına, memarlıq abidələrimizin qorunub saxlanılmasına, bərpa edilməsinə göstərilən qayğının, bu böyük mədəniyyəti yaradan tarixi simaların xidmətlərinə dövlət səviyyəsində bəslənilən hörmət və ehtiramın əyani ifadəsidir.

Möminə xatun məqbərəsinin həm də Atabəylər türbəsi adlandırılması bu möhtəşəm memarlıq əsərinin Azərbaycan dövlətçiliyi baxımından da mühüm əhəmiyyətə malik olduğunu nümayiş etdirir. XII-XIII əsrlərdə (1136-1225) fəaliyyət göstərmiş Azərbaycan Atabəyləri dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvanın sifarişi ilə böyük Azərbaycan memarı Əcəmi Naxçıvani tərəfindən məharətlə inşa edilmiş Möminə xatun türbəsi XII əsrdə Azərbaycan dövlətinin milli mədəniyyətin inkişafına göstərdiyi diqqət və qayğını, dövlət və sənətkar münasibətlərini əyani şəkildə əks etdirir. Möminə xatun türbəsinin üzərində Azərbaycanın görkəmli dövlət xadimlərinin "dünyanın ədalətli hökmdarı, əzəmətli, qalib Şəmsəddin"in (Şəmsəddin Eldənizin), "dünyanın ədalətli və ülvi hökmdarı" Atabəy Məhəmməd Cahan Pəhləvanın adlarının yazılması bu abidənin dövlətçilik baxımından əhəmiyyətli olduğunu göstərən tarixi faktlardır. Həmçinin abidənin Atabəylər sarayında dövlətçilik sahəsində də fəaliyyət göstərən Möminə xatunun şərəfinə ucaldılması da Atabəylər məqbərəsinin dövlət siyasətinin də göstəricisi olduğunu nümayiş etdirir. Nəhayət, bu möhtəşəm məqbərədə Möminə xatunla yanaşı, Şəmsəddin Eldənizin və Məhəmməd Cahan Pəhləvanın da dəfn olunması bu əzəmətli abidənin yaradıldığı dövrdə hakimiyyətdə olan Azərbaycan dövlətinin adı ilə Atabəylər türbəsi adlandırılmasına haqq qazandırır.

Bu mənada, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamında ölməz memarlıq əsəri olan Möminə xatun türbəsinin dövlətçilik baxımından da əhəmiyyətli abidə kimi qiymətləndirilməsi mühüm əhəmiyyətə malikdir: ***"Misilsiz gözəlliyə malik türbə Azərbaycanda həmin dövrdə yüksək inkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin mövcudluğunun əyani təcəssümüdür".*** Akademik Ziya Bünyadovun "Azərbaycan Atabəylər dövləti" adlı monoqrafiyasında da Möminə xatun türbəsi Atabəylər dövlətinin XII əsrdə mədəniyyət sahəsindəki böyük nailiyyətlərindən biri kimi qiymətləndirilmişdir. Bu gün, müstəqillik dövründə Prezident İlham Əliyevin "dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi" kimi Möminə xatun türbəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında xüsusi Sərəncam imzalaması, müvafiq dövlət qurumlarına tapşırıqlar verməsi və maliyyə vəsaiti ayırması müstəqil Azərbaycan dövlətinin özünün mədəni-tarixi irsinin sahibi olduğunu, milli mədəniyyəti qorumaq və yaşatmaq işinə dövlət siyasəti miqyasında yüksək münasibət bəslənilməsini əyani şəkildə nümayiş etdirir.

Ən nəhayət, Möminə xatun türbəsi möhtəşəm mədəniyyət abidəsi olmaqla bərabər, Azərbaycan elminin də mühüm nailiyyətidir. Hündürlüyü 26 metr olan 10 guşəli Möminə xatun məqbərəsinin dayanıqlığının təmin edilməsində riyazi qiymətləndirmədən və həndəsi simmetriyadan məharətlə istifadə olunmuşdur. Abidənin kompozisiyası dövrün memarlıq elminin prinsipləri əsasında formalaşdırılmışdır. Möminə xatun məqbərəsinin səthindəki firuzəyi kaşı bəzəklər və kufi yazıları Azərbaycan təsviri sənətinin və xəttatlıq sənətinin mühüm nailiyyətidir. Məqbərənin tikilməsi üçün istifadə edilmiş xüsusi tərkibə malik olan kərpic və gəc növləri inşaat texnologiyası ilə kimya elminin sintezi əsasında alınmışdır. Deməli, Möminə xatun məqbərəsinin yaradıcısı Əcəmi Əbubəkr oğlu Naxçıvani dərin və yüksək elmi biliklərə malik olan qüdrətli alim-memar olmuşdur.

Azərbaycan ədəbiyyatında Əcəmi Naxçıvaninin həyatı və sənəti müxtəlif janrlarda yazılmış bədii əsərlərin mövzusunu təşkil etmişdir. Xalq şairi Nəriman Həsənzadənin "Atabəylər" dramı Əcəmi Naxçıvaninin sənətinə ucaldılmış böyük sənət abidəsidir. Xalq yazıçısı Hüseyn İbrahimovun "Əsrin onda biri" tarixi romanında Əcəmi Naxçıvaninin taleyi və sənəti yüksək bədii boyalarla işıqlandırılmışdır. Tanınmış yazıçı Yunus Oğuz da müstəqillik dövründə yazdığı "Atabəy Eldəniz" tarixi romanında Əcəmi Naxçıvaninin hərtərəfli işlənmiş bədii obrazını yaratmışdır.

Bundan başqa, Azərbaycan elmində hələ sovet hakimiyyəti illərindən Əcəmi Naxçıvani və Möminə xatun türbəsi haqqında müəyyən tədqiqatlar aparılmışdır. Akademik Ziya Bünyadovun "Azərbaycan Atabəylər dövləti" adlı monoqrafiyasında Əcəmi Naxçıvani və onun ucaltdığı memarlıq abidələrindən də bəhs olunmuşdur. Akademiyanın müxbir üzvləri Əbdülvahab Salamzadə, Xudu Məmmədov, Cəfər Qiyasi, memarlıq üzrə fəlsəfə doktoru, dosent Qadir Əliyev və başqaları Əcəmi Naxçıvani və Möminə xatun türbəsi haqqında geniş araşdırmalar aparmış, bu möhtəşəm sənət abidəsini elmi cəhətdən yüksək dəyərləndirmişlər. Bununla belə Əbdülvahab Salamzadənin Əcəmi Naxçıvaniyə həsr edilmiş tədqiqatlarında Möminə xatun türbəsinə elmi cəhətdən əsaslandırılmış qiymət verilməklə bərabər, həm də bu böyük sənət abidəsinin ayrıca tədqiqata layiq olduğu da qeyd edilmişdir: "Türbənin bütün səthləri rəssamlıqla memarlığın sintezi şəklində təzahür edir. Möminə xatun türbəsi səthlərinin və bucaqlarının kitabə və həndəsi ornamentlərdən olan bəzəyi və gəc üzərindəki nəbati təsvirləri öz-özlüyündə monoqrafik bir əsərin mövzusu ola bilər".

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 17 oktyabr 1999-cu ildə Möminə xatun məqbərəsini ziyarət etmiş, türbənin daxilində yaradılmış Atabəylər muzeyinin işi ilə tanış olmuşdur. Həmin tarixi görüşdə Azərbaycan Respublikasının gələcək Prezidenti İlham Əliyev də iştirak etmişdir. Əməkdar mədəniyyət işçisi Arif Qədimov Atabəylər muzeyindəki Azərbaycan dövlətçiliyinin tarixi səhifələrini əks etdirən nadir eksponatlar barədə Ulu Öndərin qarşısında məlumat vermişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan memarlığının şah əsəri olan Möminə xatun məqbərəsinin qorunması, ətraf ərazinin abadlaşdırılması və Atabəylər muzeyinin daha da zənginləşdirilməsi, türbənin tarixinin, memarlıq xüsusiyyətlərinin hərtərəfli şəkildə araşdırılıb öyrənilməsi haqqında tapşırıqlar vermişdir.

Ulu Öndər 2002-ci il avqust ayının 9-da Azərbaycan Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsinə həsr olunmuş yığıncaqdakı nitqində bu fikri bir daha diqqət mərkəzinə çəkərək demişdir: ***"Mən burada tarix haqqında çox danışıram. Tarix, mədəniyyət, tarixi abidələr, memarlıq abidələri... Məsələn, Naxçıvanın ərazisini götürsək, bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri var. ...Bu tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm də mədəniyyətini, adət-ənənələrini göstərən abidələrdir. Mən indi desəm ki, Möminə xatun türbəsi haqqında geniş təsvirli, müasir poliqrafiya səviyyəsində hazırlanmış albom, onun haqqında tarixi mənbələr və başqa şeylər toplusu varmı? ...Ayrı-ayrı bukletlər var, broşürlər var. Ancaq elə bircə bu abidə böyük bir kitaba bərabərdir. ...Həm memarlıq xüsusiyyətləri, həm mühəndis işləri, inşaat işləri, tikinti materialları, abidənin yaranması tarixi və sair, onun hər bir fraqmenti müasir poliqrafiya üsulundan istifadə edilərək albomda əks olunsa, bunun özü elə Azərbaycan mədəniyyətinin nə qədər zəngin olduğunu göstərəcəkdir".***

Dövlət əhəmiyyətli bu çağırışı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı bəzi tədbirlər haqqında" imzaladığı Sərəncamı bir daha gündəmə gətirir. Azərbaycan alimləri Möminə xatun məqbərəsi haqqında müstəqil dövlətçilik və Azərbaycançılıq ideyaları işığında, müasir tədqiqatlar əsasında yeni tarixi dövrün yüksək tələblərə cavab verən monoqrafik əsərlər və elmi-populyar kitablar yazıb xalqımıza çatdırmağa borcludurlar.



Memar Əcəmi Naxçıvaninin adı ölkəmizdə əbədiləşdirilmişdir. Dahi memarın adına Bakı şəhərində metro stansiyası, Bakıda və Naxçıvanda küçələr vardır. Əcəmi Naxçıvaninin Naxçıvan şəhərində ucaldılmış büstü mükəmməl sənət əsəridir. Bunlar Əcəmi Naxçıvaninin Möminə xatun türbəsinin baştağında küfi xətlə həkk etdiyi "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar" sözlərində ifadə olunan sənətin əbədiyyəti haqqındakı müdrik fikirlərin nə qədər böyük uzaqgörənliklə deyildiyini bir daha sübut edir.

Qeyd edilənlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konstruksiyası ilə bağlı tədbirlər haqqında" 2025-ci il 22 may tarixli Sərəncamında XII əsr Azərbaycan və Şərq memarlığının nadir nümunəsi olan Möminə xatun məqbərəsinin "İslam aləminin şah əsərləri sırasında fəxri yer tutan monumental sənət nümunəsi" və "xalqımızın milli sərvəti" kimi qiymətləndirilməsinin siyasi-ideoloji baxımdan olduğu kimi, mədəni-tarixi və elmi cəhətdən də yüksək səviyyədə dəyərləndirilməsinin əməli ifadəsi olduğunu nümayiş etdirir.

Beləliklə, həm siyasi-tarixi əhəmiyyətinə və həm də nadir sənət əsəri kimi dünya memarlığı sahəsindəki xüsusi yerinə və qiymətinə görə özünəməxsus statusa malik olan Möminə xatun memarlıq abidəsinin dövlət səviyyəsində qorunması, bərpa edilməsi, konservasiya olunması haqqındakı mühüm əhəmiyyətə malik olan Sərəncamı müstəqil Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqımızın tarixi-mədəni irsinə verdiyi böyük dəyərin və göstərdiyi xüsusi qayğının əməli ifadəsidir. Müzəffər Ali Baş Komandanın Sərəncamı ölkəmizin və xalqımızın tarixində xüsusi yer tutmuş Azərbaycan Atabəylər dövlətinin fəaliyyətinin, memarlıqda məktəb yaratmış Əcəmi Əbubəkr oğlu Naxçıvaninin tərcümeyi-halı və xidmətlərinin, Möminə xatun məqbərəsinin memarlıq xüsusiyyətlərinin daha dərindən və əsaslı şəkildə araşdırılıb tədqiq olunması sahəsində geniş perspektivlər açır. Heç şübhəsiz, bütün bunlar Möminə xatun məqbərəsinin bərpası və konservasiyası ilə məşğul olan təşkilatlarla bərabər, Atabəylər dövlətinin mədəniyyət siyasətinin möhtəşəm təcəssümü olan Möminə xatun abidəsinin tədqiqi ilə məşğul olacaq elmi qurumları da səfərbər edəcəkdir. Azərbaycan Respublikasının elm və mədəniyyət işçiləri, yaradıcı ziyalılar adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ölkəmizdə elmin, ədəbiyyatın və mədəniyyətin inkişafına göstərdiyi yüksək qayğıya görə dərin minnətdarlığımızı bildiririk.

# Sağlam xalq güclü dövlətin təməlidir

## Ulu Öndər Heydər Əliyev xalqın sağlamlıq məsələlərinə daim taleyüklü məsələ kimi yanaşmışdır



Azərbaycanın müasir tarixində dərin izlər qoyan, yeni dövlətçilik ideyalarının müəllifi olan Ümummilli Lider Heydər Əliyev yalnız siyasi arenada deyil, sosial-iqtisadi və humanitar sahələrdə də mühüm islahatlara imza atıb. Onun fəaliyyəti təkcə ölkənin siyasi sabitliyini təmin etməklə kifayətlənməmiş, eyni zamanda xalqın rifah halının yüksəldilməsinə, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə və sağlam həyat tərzinin formalaşdırılmasına da yönəlmişdi. Bu mənada, səhiyyə sahəsi dahi şəxsiyyət Heydər Əliyevin xüsusi diqqət ayırdığı, strateji əhəmiyyət daşıyan sahələrdən biri kimi önə çıxmışdır.

Ümummilli Liderimiz Heydər Əliyevin 2001-ci il 4 iyun tarixli Sərəncamı ilə hər il iyunun 17-si ölkəmizdə "Tibb İşçilərinin Peşə Bayramı Günü" kimi qeyd olunur. Bu günün qeyd olunması ölkəmizdə səhiyyə sahəsinə, o cümlədən tibb işçilərinə göstərilən qayğının parlaq təzahürüdür. Milli dövlət quruculuğu strategiyasında səhiyyənin də inkişafına həssaslıqla yanaşan, bu sahəyə diqqət və qayğısını heç zaman əsirgəməyən Ulu Öndər Heydər Əliyev demişdir: ***"Tibb, səhiyyə hər bir insan üçün çox vacib olan sahədir. Özünü tibb, səhiyyə işinə, insanların sağlamlığının keşiyində durmaq işinə həsr edən adamlar, həqiqətən, çox yüksək hörmət və ehtirama layiq olan insanlardır".***

Azərbaycanın ən mürəkkəb siyasi-ictimai mərhələlərdən keçdiyi dövrlərdə belə Ümummilli Lider bu sahənin inkişafını daim prioritet vəzifələr sırasında saxlamışdı. Həm sovet dövründə respublikaya rəhbərlik etdiyi illərdə, həm də Azərbaycanın müstəqillik dönəmində Heydər Əliyevin səhiyyə siyasəti dərin strateji baxışı və humanist yanaşması ilə seçilirdi. Ulu Öndər Heydər Əliyev xalqın sağlamlıq məsələlərinə daim taleyüklü məsələ kimi yanaşmış, səhiyyənin cəmiyyət həyatında həlledici rol oynadığını dəfələrlə vurğulamışdır. Ümummilli Lider səhiyyə sahəsini cəmiyyət və dövlət həyatında ən mühüm, prioritet sahə kimi qiymətləndirərək deyirdi: ***"Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir".***

14 iyul 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə respublikanın ictimai-siyasi, sosial və iqtisadi həyatında yeni bir mərhələ başlandı. Həmin dövrdə Azərbaycanda səhiyyənin vəziyyəti ozamankı tələblərə cavab vermirdi.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hələ ötən əsrin 70-ci illərində ölkəmizin bütün regionlarında səhiyyə ocaqları tikilərək istifadəyə verilmiş, əhalinin sağlamlığının qorunmasına xüsusi diqqət yetirilmişdir. Müstəqillik illərində də səhiyyənin inkişafına hesablanmış məqsədyönlü və ardıcıl tədbirlər görülmüş, bu sahədə fəaliyyəti tənzimləyən zəngin qanunvericilik bazası yaradılmış, həkimlərin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, ixtisaslı və peşəkar həkim kadrların hazırlanması diqqət mərkəzində saxlanılmışdır. Belə bir dövrdə dahi şəxsiyyətin uzaqgörənliyi nəticəsində Azərbaycanın səhiyyə sistemi yenidən formalaşmağa başladı. Ulu Öndər səhiyyənin yalnız müalicəyönümlü deyil, həm də profilaktik xarakterli bir sistemə çevrilməsini əsas hədəf kimi müəyyənləşdirmişdi. Bu məqsədlə respublikada yeni xəstəxanalar, poliklinikalar, sanatoriyalar və digər tibbi müəssisələr inşa edildi, mövcud səhiyyə ocaqları əsaslı şəkildə təmir olundu, onların maddi-texniki bazası müasirləşdirildi.

Bununla yanaşı, dahi şəxsiyyət səhiyyə sistemində kadr potensialının gücləndirilməsini də əsas prioritetlərdən biri kimi müəyyən etmişdi. Onun təşəbbüsü ilə Azərbaycan Tibb İnstitutu üçün yeni tədris korpusları tikildi, tibbi kadrların hazırlanması və ixtisasartırma imkanları genişləndirildi. Gənc mütəxəssislərin sovet ittifaqının nüfuzlu tibb mərkəzlərində təcrübə keçməsi üçün şərait yaradıldı. Bu addımlar nəticəsində respublikamızda yüksəkixtisaslı həkimlərin və orta tibb işçilərinin sayı əhəmiyyətli dərəcədə artdı. Profilaktik tədbirlərin genişləndirilməsi, sanitar-gigiyenik maarifləndirmə işinin gücləndirilməsi, uşaqlar və qadınlar üçün xüsusi tibbi xidmətlərin təşkili kimi məsələlər də diqqət mərkəzində saxlanılırdı. Azərbaycanın ən həssas və ən çox qayğıya ehtiyac duyan sahələrindən olan səhiyyə də məhz Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi, qayğısı və prinsipial yanaşması sayəsində yenidən dirçəldi. Ulu Öndər əbəs yerə dəfələrlə vurğulamırdı ki, insanın sağlamlığı dövlətin məsuliyyətidir. Bütün bu nailiyyətlər məqsədyönlü, ardıcıl və elmi əsaslara söykənən siyasətin təzahürü idi. Məhz bu zamanda qoyulan təməl sonrakı illərdə – müstəqillik dövründə də sağlamlıq sisteminin inkişafı üçün dayanıqlı baza rolunu oynadı.

Ulu Öndər bütün sahələrdə olduğu kimi, Azərbaycanın səhiyyə sahəsini də daim diqqət mərkəzində saxlayırdı. Ümummilli Lider, ilk növbədə, tibb üzrə xarici mütəxəssislərin diqqətini Azərbaycana cəlb etməyə, onlarla yerli mütəxəssislər arasında əlaqə yaratmağa çalışırdı. Keçən əsrin 60-70-ci illərindən etibarən tibb üzrə beynəlxalq qurultay, simpozium, konqres və konfransların Bakıda keçirilməsini təşkil edən görkəmli dövlət xadimi Heydər Əliyev ölkəmizin səhiyyə sahəsinin, o cümlədən tibb elmi və tibb təhsili sahələrinin beynəlxalq miqyasa çıxmasına, bütün sahələrdə olduğu kimi, bu sahələrin də dayanıqlı və sabit inkişafının təmininə əlverişli şərait yaradırdı. Həmin dövrdən başlayaraq Ulu Öndərin təşəbbüsü ilə hər il yüzlərlə gənc keçmiş sovetlər ittifaqının ən mötəbər ali məktəblərində müxtəlif peşə və ixtisaslar üzrə təhsil almağa göndərilirdi. Bu, gələcəyin kadr hazırlığının təmininə istiqamətlənmiş uzaqgörən siyasətin həyata keçirilməsi demək idi. O, gənclərin təhsilinə, işlə təmininə, hərtərəfli inkişafına, onların dünyagörüşünün, beynəlxalq əlaqələrinin artmasına, dünya gənclərinin intellekt yüksəkliyinə inteqrasiya olunmalarına, yeniliklərdən bəhrələnmələrinə, fiziki və əqli cəhətdən sağlam böyümələrinə xüsusi diqqət yetirirdi. Ümummilli Lider Heydər Əliyev deyirdi: ***"Dövlətimizin gələcəyi bizim gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır".***

Xalqın təkidli tələbi ilə 1993-cü ildə dahi şəxsiyyətin hakimiyyətə qayıdışı ölkənin həyatında dönüş nöqtəsi oldu. O, dövlət idarəçiliyini yenidən bərpa etməklə yanaşı, səhiyyə sahəsinin də xilası üçün təxirəsalınmaz tədbirləri həyata keçirməyə başladı. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövləti üçün yeni bir səhiyyə strategiyası formalaşdırdı. Bu strategiyanın əsasını milli maraqlara əsaslanan, insan amilini önə çəkən və beynəlxalq təcrübəni nəzərə alan yanaşma təşkil edirdi. İlk mərhələdə səhiyyə infrastrukturunun bərpası və tibbi xidmətlərin əhaliyə əlçatanlığının təmin edilməsi istiqamətində addımlar atıldı. Respublikanın bir çox bölgəsində yeni xəstəxanalar, doğum evləri, poliklinikalar tikildi, mövcud müəssisələr əsaslı şəkildə təmir olundu və müasir tibbi avadanlıqlarla təchiz olundu. Müstəqillik dövründə səhiyyə sahəsindəki ən mühüm nailiyyətlərdən biri də ana və uşaq sağlamlığının qorunmasına dair tədbirlərin genişləndirilməsi oldu. Bütün bu islahatların mərkəzində bir ideya dayanırdı: sağlam cəmiyyət qurmaq. Dahi şəxsiyyət Heydər Əliyev inamla bildirirdi: ***"Güclü dövlətin təməli sağlam və savadlı vətəndaşdır".*** Onun bu yanaşması müstəqil Azərbaycanın səhiyyə siyasətinin əsasını təşkil etdi və illər keçsə də, həmin prinsiplər bu gün də aktual olaraq qalır.

Bütün bu işlərin fövqündə isə, ilk növbədə, səhiyyə sahəsində milli qanunvericilik bazasının yaradılması dururdu. Dahi şəxsiyyət Heydər Əliyev dövlət başçısı kimi sağlamlığın qorunmasını fundamental insan hüquqlarından biri kimi dəyərləndirir və bu istiqamətdə hüquqi mexanizmlərin formalaşdırılmasına xüsusi əhəmiyyət verirdi. Ümummilli Lider Heydər Əliyev üçün Azərbaycan vətəndaşının sağlamlığı, rifahı əsas prinsiplərdən biri idi. O, dəfələrlə vurğulayırdı: ***"İnsan sağlamlığı – cəmiyyətin əsas sərvətidir".*** Bu yanaşma təkcə sözlərlə deyil, konkret addımlar və ardıcıl tədbirlərlə reallığa çevrilmiş, Onun rəhbərliyi ilə səhiyyə sahəsində həyata keçirilən islahatlar uzunmüddətli və dayanıqlı inkişafın bünövrəsini formalaşdırmışdır. Ən mühüm sənədlərdən biri qəbul olunmuş "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu oldu. Ulu Öndər səhiyyə ilə bağlı qəbul edilən hər bir qanunu, sadəcə, hüquqi sənəd deyil, insan həyatına və rifahına yönəlmiş bir dövlət qayğısı kimi dəyərləndirirdi. Bu baxımdan dahi rəhbər Heydər Əliyevin səhiyyə sahəsində qanunvericilik təşəbbüsləri təkcə bir dövrün ehtiyaclarını deyil, eyni zamanda gələcək nəsillərin sağlamlığını da təmin etməyə yönəlmiş strateji qərarlar idi.

İnsan sağlamlığı bütün dövrlər üçün cəmiyyətin ən qiymətli sərvəti hesab olunur. Məhz buna görə də insanların sağlamlığının yaxşılaşdırılması, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi məqsədilə bu gün Naxçıvan Muxtar Respublikasında da mühüm işlər görülür. Burada səhiyyə infrastrukturunun yenilənməsi, yeni ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin yaradılması da yalnız bir məqsədə – əhalinin sağlamlığının qorunmasına xidmət edir. Bu səbəbdən də dərman və tibbi ləvazimatlarla təchizat yaxşılaşdırılmış, ana və uşaqların, ahılların, bütövlükdə, əhalinin hər bir təbəqəsinin sağlamlığının qorunması əsas məsələyə çevrilmişdir.

Naxçıvan Dövlət Universitetində Tibb fakültəsi üçün korpusun, Naxçıvan Tibb Kollecinin müasir tələblər səviyyəsində yenidən qurulması, ixtisasların sayının artırılması səhiyyə müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına imkan verir. Tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlif profilli elmi-praktiki seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi sürətlə inkişaf edir, müasirləşir.

Bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. ***"Mən çalışıram və istəyirəm ki, Azərbaycanın hər bir yerində yüksəksəviyyəli tibbi xidmət göstərilsin",*** – deyən ölkə Prezidenti cənab İlham Əliyev Ulu Öndərin müəyyənləşdirdiyi siyasi kursu bütün istiqamətlərdə, eləcə də səhiyyə sahəsində uğurla davam etdirir. Son illər tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında da mühüm yer tutur. Qəbul olunmuş Dövlət proqramlarının icrası göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsinə, xəstəliklər üzrə müayinələrin həcminin artmasına, dərmanla təchizatın əhəmiyyətli dərəcədə yaxşılaşmasına şərait yaradır.

Ölkədə səhiyyənin rəqəmsallaşdırılması, icbari tibbi sığortanın tətbiqi, regionlarda yüksəksəviyyəli tibb mərkəzlərinin yaradılması və əhalinin bütün təbəqələrinin tibbi xidmətə əlçatanlığının artırılması bu strategiyanın yeni mərhələdə reallaşmasıdır. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ulu Öndərin gələcəyə istiqamətlənmiş strateji inkişaf kursu ilə inamla irəliləyir və möhtəşəm qələbələrə imza atır. Dahi şəxsiyyətin adını daşıyan Heydər Əliyev Fondu qayğı mərkəzinə çevrilib. Fondun həyata keçirdiyi humanitar layihələr, Azərbaycanın ərazi bütövlüyü uğrunda sağlamlığını itirmiş hərbçilərə dəstəyi, şəhid ailəsi üzvlərinə göstərilən qayğı Heydər Əliyev irsinin təkcə siyasi deyil, həm də mənəvi gücünü göstərir. Ümummilli Liderin də dediyi kimi: ***"Biz elə bir dövlət qurmalıyıq ki, burada hər bir insanın sağlamlığı dövlətin qayğısı altında olsun. Sağlam xalq güclü dövlətin təməlidir".***

**Aysel DÜNYAMALIYEVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

# Qədim yurda göstərilən diqqət və qayğı ölkəmizin milli maraqlarının tələbidir



## Prezident İlham ƏLİYEV:

***“Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvana həmişə böyük diqqət və qayğısı var idi. Xüsusilə 1990-cı illərin əvvəllərində naxçıvanlılar Heydər Əliyevi özlərinə rəhbər seçəndən sonra. Həmin ağır, çətin vəziyyətdə Naxçıvanda sabitliyin təmin olunması, Naxçıvanda inkişafın təmin olunması məhz Heydər Əliyevin və naxçıvanlıların birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Naxçıvanlılar bu çətin sınaqdan şərəflə çıxdılar və o illər ərzində təməli qoyulmuş layihələr, işlər bu gün öz bəhrəsini verməkdədir.”***

***“Mən ona özüm qədər inanıram”***

***“Sizinlə məni bağlayan təkcə bu torpaqda doğulmağım, böyüyüb həyata atılmağım deyil. Sizinlə məni bağlayan Azərbaycan Respublikası, o cümlədən muxtar respublika üçün çox ağır bir dövrdə – 1990-cı ildən sizinlə bir yerdə yaşamağım, Naxçıvanı sizinlə birgə qorumağımdır”.*** Ulu Öndərimiz Heydər Əliyevin Naxçıvana səfərlərinin birində dilə gətirdiyi bu cümlələr qədim yurdun insanlarının Heydər Əliyevə sıx bağlılığının və dərin sədaqətinin haradan yarandığını və nə qədər səmimi olduğunu bir daha sübut edir.

Onun yolunun davamçısı, müasir Azərbaycanın inkişafında misilsiz xidmətlər göstərən, ölkəmizi dünyanın aparıcı dövlətləri səviyyəsinə yüksəldən dövlət başçımız da naxçıvanlılar üçün Ulu Öndər qədər dəyərli və əzizdir. Ona görə də ölkə başçısının qədim diyara bütün səfərləri həmişə böyük sevgi, rəğbətlə qarşılanıb. Ulu Öndərin ***“Mən ona özüm qədər inanıram”***, – dediyi həmin gündən naxçıvanlılar da Ulu Öndərin davamçısına böyük inam hiss ediblər. Onun həyata keçirdiyi daxili və xarici siyasəti yekdilliklə dəstəklədiklərini ifadə ediblər.

***Hər səfər bir çox açılışlarla yadda qalıb***

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına hər səfəri yerli sakinlər tərəfindən rəğbətlə qarşılanıb. Azərbaycan Prezidenti 2004-2023-cü illər ərzində 16 dəfə Naxçıvan Muxtar Respublikasına səfər edib və bu səfərlər zamanı Naxçıvanın sürətli sosial-iqtisadi inkişafının bariz nümunəsi olan mühüm əhəmiyyətə malik obyektlərin açılışı olub, ölkə rəhbərinin tövsiyə və tapşırıqlarına əsasən yeni layihələrə start verilib.

2004-cü ildən ötən müddət ərzində muxtar respublikaya səfərləri zamanı elm, təhsil və mədəniyyət, idman, səhiyyə və sosial təminat, energetika, meliorasiya, yol tikintisi, sahibkarlıq, eləcə də hərbi quruculuq sahələrini əhatə edən 150-dən çox obyektin açılışında, bölgə üçün mühüm əhəmiyyət kəsb edən İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasimində iştirak edib, Naxçıvan Muxtar Respublikasının 80, 85 və 90 illik yubileyləri keçirilib.

Prezident İlham Əliyevin Naxçıvana səfərləri davamlı xarakter daşıyıb və hər səfər bir çox açılışlarla yadda qalıb. Ölkə rəhbəri öz çıxışlarında dəfələrlə qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Azərbaycanın və ümumilikdə, Türk dünyasının mühüm strateji məkanıdır. Qədim yurda göstərilən diqqət və qayğı ölkəmizin milli maraqlarının tələbidir. Bu mənada, dövlətimiz daim muxtar respublikaya diqqət göstərir. Tarix baxımından çox qısa bir dövr ərzində muxtar respublikada bu qədər işlərin görülməsi, qədim diyarın başdan-başa abadlaşdırılması məhz Azərbaycan Prezidentinin imzaladığı Dövlət proqramlarından, fərman və sərəncamlardan irəli gələn vəzifələrin vaxtında və diqqətlə reallaşdırılması nəticəsində mümkün olub. Ötən illərdə muxtar respublikada qarşıya qoyulmuş başlıca vəzifələr – əhalinin sosial rifah halının yaxşılaşdırılması, abadlıq-quruculuq işlərinin daha sürətlə aparılması, təhsil, səhiyyə müəssisələrinə diqqətin artırılması, xidmət və infrastruktur sahələrində işin müasir dövrün tələblərinə uyğunlaşdırılması görülən kompleks işlərin tərkib hissəsidir. Çünki bu gün dövlətimizin həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır.

35 ildir, blokada vəziyyətində yaşayan Naxçıvan Muxtar Respublikasının daxili imkanlarından, ehtiyatlarından, iqtisadi əlaqələrindən əldə olunan resurslar da ardıcıl olaraq inkişafa və sosial rifahın daha da yaxşılaşdırılmasına ünvanlanıb. Bütün bunların təməlində isə məhz Ulu Öndərimiz Heydər Əliyev yolunun, Onun inkişafa hesablanmış strateji yüksəliş xəttinin uğurla davam etdirilməsi dayanır. Naxçıvan Muxtar Respublikasında müasir səviyyədəki yüksək inkişaf da Azərbaycanda Heydər Əliyev yolunun geniş üfüqlərinin möhtəşəm təntənəsidir.

Blokada şəraitində yaşadığımız 35 il ərzində qədim diyarımızda geniş vüsət alan tikinti-quruculuq, abadlıq işləri, yol-nəqliyyat sisteminin müasir tələblər səviyyəsində yenidən qurulması, əhalinin kommunal problemlərinin həlli, infrastrukturun yeniləşdirilməsi istiqamətində əsaslı addımlar atılıb. Naxçıvan hazırda inkişafının keyfiyyətcə yeni dövrünü yaşayır.

Bu gün ölkəmizin, o cümlədən muxtar respublikamızın əhalisi Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin bəhrəsini gündəlik həyatında hiss edir. Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları, hətta ən ucqar dağ kəndləri də abadlaşdırılıb. Bu kəndlərdə insanların yaşayışı üçün vacib olan bütün məsələlər həllini tapıb. Təsadüfi deyil ki, Naxçıvanın əhalisinin sayı artaraq 470 min 943 nəfərə çatıb. Ölkə başçısının qeyd etdiyi kimi, əhalinin artımı, əlbəttə ki, bizi daha da gücləndirir, eyni zamanda yeni inkişafı da şərtləndirir. Çünki artan əhali artan iş yerləri, yeni sənaye müəssisələri deməkdir. Muxtar respublikada yeni iş yerlərinin açılması isə insanların yurda bağlılığını artırır. Bu isə onu göstərir ki, biz düz yoldayıq və bu yol Heydər Əliyev yoludur.

Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasına səfərlərinin nəticələrinə əsaslanaraq deyə bilərik ki, muxtar respublika ölkəmizin regionları arasında özünün dinamik inkişafı, tərəqqisi ilə bu gün də seçilməkdədir. Ölkə başçısının muxtar respublikaya göstərdiyi diqqət isə Naxçıvan Muxtar Respublikasının bundan sonra da inkişaf edəcəyinin real təminatıdır.

***Naxçıvanın yeni yüksəlişinin yol xəritəsi müəyyənləşdirilib***

Son illər ərzində regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrası nəticəsində, demək olar ki, bölgələrin siması dəyişib. Bu tərəqqi, innovativ inkişaf, əlbəttə ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasından da yan keçməyib. Dövlət proqramları çərçivəsində görülmüş işlər Naxçıvanın qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar açıb. Hazırda bu imkanlardan istifadə edilməklə muxtar respublikanın sosial-iqtisadi həyatında, o cümlədən əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması əsas prioritetlərdən birinə çevrilib. Bu isə, öz növbəsində, Naxçıvanın sosial-iqtisadi inkişafı ilə əlaqədar kompleks proqramların hazırlanması və icrasının davam etdirilməsi zərurəti yaradıb. Məhz bütün bunları nəzərə alan Prezident İlham Əliyev “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında” Sərəncam imzalayaraq müasir Naxçıvanın yeni yüksəlişinin yol xəritəsini müəyyənləşdirib.

Prezidentin müəyyənləşdirdiyi “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” məhz yeni mərhələdə müəyyən vəzifələrin reallaşdırılması prioritet istiqamətlər üzrə tədbirlərin maliyyələşmə mənbələrini, regionun sosial-iqtisadi inkişafı sahəsində əldə olunacaq hədəf göstəricilərini özündə ehtiva edir. İnanırıq ki, işgüzarlıqları, prinsipiallıqları ilə birlikdə Vətən sevgisinin misilsiz nümunəsini göstərən naxçıvanlılar həmişə olduğu kimi, bundan sonra da böyük nailiyyətlərə imza atacaqlar.

**Ramiyə ƏKBƏROVA**

# Səlahiyyətli nümayəndə sənət adamları ilə görüşüb



Mayın 4-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli muxtar respublikada fəaliyyət göstərən sənət adamları ilə görüşüb.

Memar Əcəminin yurdu olan qədim Naxçıvanda tarixboyu görkəmli incəsənət nümayəndələrinin yaşayıb fəaliyyət göstərdiyini bildirən səlahiyyətli nümayəndə qeyd edib ki, Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan Naxçıvan sənətkarlıq məktəbinin izlərinə dünyanın bir çox yerlərində rast gəlinir. Qədim ənənələrə əsaslanan və yüksək estetik dəyərlərə malik zəngin sənət nümunələri ilə seçilən bu nadir irs yaşadılmalı və dünya miqyasında tanıdılmalıdır.

Səlahiyyətli nümayəndə görüş iştirakçılarının hər biri ilə fərdi söhbət aparıb, problemləri ilə maraqlanıb, təkliflərini dinləyib.

# Səlahiyyətli nümayəndə ölkə birincisi olmuş naxçıvanlı voleybolçular ilə görüşüb



“Mömінə xatun” komandası 16 yaşadək qız voleybolçuların Azərbaycan çempionatının qalibi, 14 və 18 yaşadək oğlanlardan ibarət “Naxçıvan” komandaları isə ölkə çempionatının bürünc medalçıları olublar.

İyunun 4-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli komandaların üzvlərini qəbul edib.

Fuad Nəcəfli voleybolçu qızların ilkə imza ataraq qazandığı bu uğuru müstəqillik illərində Naxçıvanda idman sahəsində qazanılmış ən böyük nəticələrdən biri kimi qiymətləndirib, qələbənin bütün muxtar respublika ictimaiyyətinin sevincinə səbəb olduğunu bildirib və təbriklərini çatdırıb.



Səlahiyyətli nümayəndə qısa zamanda böyük nəticələr əldə olunmasına görə Azərbaycan Voleybol Federasiyası Naxçıvan filialına və komandaların məşqçi heyətinə təşəkkür edib. Qeyd edib ki, ciddi hazırlıq, yüksək nizam-intizam və böyük zəhmət uğurun əsasıdır. Əzmkar qələbəsi ilə gənclərimiz həm də mənəvi hazırlığını, inamını və komanda ruhunu ortaya qoyub. Bu uğur həm də gənclər arasında idmanın kütləvi xarakter almasının, xüsusilə qadınların idmana marağının artmasının real göstəricisidir.

Fuad Nəcəfli Naxçıvanda idman infrastrukturunun yenilənməsinə ehtiyac olduğunu vurğulayaraq bildirib ki, hazırda muxtar respublikada digər sahələrdə olduğu kimi, idman sferasında da islahatlar aparılır, infrastrukturun yenilənməsi məqsədilə addımlar atılır. Bütün bunlar gələcəkdə uğurların davam etdirilməsinə daha geniş imkanlar açacaq.

Azərbaycan Voleybol Federasiyası Naxçıvan filialının direktoru Vüqar Əliyev Naxçıvanda voleybolun inkişafına göstərdiyi dəstəyə görə səlahiyyətli nümayəndəyə və Azərbaycan Voleybol Federasiyasının rəhbərliyinə minnətdarlıq edib. Bildirib ki, Naxçıvanda voleybol idman növünün elmi əsaslarla inkişaf etdirilməsi və idarəetmənin səmərəli təşkili ilə bağlı 2023-cü ilin sentyabr ayından etibarən bir çox islahatlar aparılıb, 2025-ci ilin may ayında Azərbaycan Voleybol Federasiyasının Naxçıvan filialı yaradılıb. Son dövrdə muxtar respublikada bir çox yüksəksəviyyəli idman yarışları keçirilib, Naxçıvan voleybolçuları bu yarışlarda uğurlu nəticələr əldə edib. Nəticədə, bir neçə oyunçu milli komandaların heyətinə cəlb olunub.



Görüşdə Voleybol Federasiyası Naxçıvan filialının baş katibi Rahil Tahirli, “Möminə xatun” komandasının baş məşqçisi Səməd Əkbəri və digər məşqçi heyətinin Naxçıvanda voleybolun inkişafındakı xidmətləri xüsusi qeyd edilib.

“Möminə xatun” komandasının baş məşqçisi Səməd Əkbəri, komandanın kapitanı Həlimə Hüseynli yarış barədə təəssüratlarını bölüşüb, ölkə kubokunu Naxçıvana gətirdiklərinə görə qürur və sevinc hissləri keçirdiklərini, daha böyük qələbələrə ruhlandıqlarını bildiriblər.

Sonda xatirə fotosu çəkdirilib.

# Naxçıvanda II karyera sərgisi açılıb





İyunun 11-də Naxçıvan şəhərində II karyera sərgisi açılıb. Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Musiqi Kollecinin “Nağaraçalanlar” ansamblı sərgi iştirakçılarını maraqlı ifa ilə qarşılayıblar.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, Naxçıvanda keçirilən digər mühüm tədbirlər kimi karyera sərgisi də artıq ənənə halını alıb. Bu sərgi ikinci dəfədir, təşkil olunur və əhəmiyyətlidir. Səlahiyyətli nümayəndə qeyd edib ki, muxtar respublikada həyata keçirilən islahatlar kadrları və iqtisadiyyatı, eləcə də digər sahələri əhatə edir.



“Karyera qurmaq uzun və çətin bir yolun başlanğıcıdır. Bu yol heç də hamar deyil. Hər bir insanın karyera yolunda qarşısına böyük çətinliklər çıxır. Bu çətinliklərin öhdəsindən yalnız əzmlə çalışmaqla gəlmək olar”, – deyən Fuad Nəcəfli bildirib ki, artıq süni intellekt həyatımıza daxil olub və bir çox sahələrdə insanları əvəz etməyə qadirdir. Əgər bu yeniliklər “yaşıl enerji”, kənd təsərrüfatı, iqtisadiyyat, nəqliyyat infrastrukturu və turizm kimi sahələrdə tətbiq edilsə, böyük uğurlar əldə olunacaq.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üzrə 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın əhəmiyyətinə toxunan səlahiyyətli nümayəndə Dövlət Proqramının icrasında gənclərin rolundan danışıb, karyera sərgisinin fəaliyyətinə uğurlar arzulayıb.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, ötən il keçirilən I karyera sərgisində təqdim olunan şəxsi məlumatlar əsasında artıq 100-ə yaxın şəxs işlə təmin edilib. Budəfəki sərgidə 28 dövlət, 14 özəl müəssisə olmaqla, ümumilikdə, 42 təşkilat vakant vəzifə çıxarıb.

Məlumat verilib ki, iki gün davam edəcək sərgiyə 5 mindən çox tələbə və məzun olmaqla, ümumilikdə, 7 min iştirakçının qatılacağı gözlənilir. Onlar müəssisə nümayəndələri ilə görüşmək, şəxsi məlumatlarını təqdim etmək, təcrübə və vakant iş yerləri haqqında birbaşa məlumat almaq imkanı əldə edəcəklər. Sərgi müddətində Bakı şəhərindən dəvət olunmuş peşəkar mütəxəssislər tərəfindən müxtəlif mövzularda təlimlər keçiriləcək.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, Naxçıvan Şəhər İcra Hakimiyyəti və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən II karyera sərgisi Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Musiqi Kollecinin rəqs qrupu və “Sazçalanlar” ansamblının ifasında mahnı və rəqs nömrələri ilə davam edib.

# Naxçıvanda 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı təşkil edilib



İyunun 12-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı təşkil edilib.

Konsert proqramını Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət rəsmiləri, deputatlar, universitetin professor-müəllim heyəti, tələbələr, ictimaiyyət nümayəndələri izləyiblər.

Tədbirdə 15 İyun – Milli Qurtuluş Gününün əhəmiyyətindən, Ümummilli Liderimiz Heydər Əliyevin milli kinomuzun inkişafındakı tarixi xidmətlərindən danışılıb, Ulu Öndərin Azərbaycanın milli kinoları ilə bağlı çıxışlarına dair videoçarxlar nümayiş etdirilib.

Konsertdə Fikrət Əmirov, Tofiq Quliyev, Süleyman Ələsgərov, Qara Qarayev, Rauf Hacıyev, Arif Məlikov, Cahangir Cahangirov, Üzeyir Hacıbəyli kimi dahi bəstəkarların sevilən kino musiqiləri ifa olunub, milli kinomuzun incilərindən fraqmentlər səhnədə canlandırılıb. Proqrama uyğun solistlər, tanınmış Xalq artistləri və Əməkdar artistlər, Prezident mükafatçıları, universitetin müəllim və tələbələri çıxış ediblər. Konsertin bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar artisti, dosent Mübariz Əsgərov, rejissoru Xalq artisti Kamran Quliyev, dirijorları isə Naxçıvan Dövlət Universitetinin müəllimi,





Xalq artisti, professor Çingiz Axundov və Naxçıvan Dövlət Universitetinin müəllimi, Əməkdar artist Səməd Əsgərov olub.

Konsertin sonunda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli səhnə arxasına keçərək sənət adamları ilə səmimi söhbət edib, çıxışları yüksək dəyərləndirib, sənət yolunda hər birinə uğurlar arzulayıb. Sənət adamları göstərilən diqqət və dəstəyə görə minnətdarlıq ediblər.

Konsert proqramı Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə təşkil edilib.



# Heydər Əliyev adına Hərbi Lisey kursantlarının buraxılış mərasimi keçirilib



İyunun 13-də Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyin 25-ci buraxılışı münasibətilə tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə iştirak edib.

Heydər Əliyev adına Hərbi Liseyin rəisi, polkovnik Rəşad Əsgərov səlahiyyətli nümayəndəyə mərasimə hazırlıq barədə raport verib.

Səlahiyyətli nümayəndə kursantları salamlayıb.

Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kursantlar orkestrin müşayiəti ilə Dövlət Himnini səsləndiriblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək bildirib ki, müasir, güclü və peşəkar ordu müstəqil dövlətin sütunlarından biridir. Xüsusilə Azərbaycan kimi mürəkkəb coğrafiyada yerləşən bir ölkə üçün ordu müstəqilliyin, suverenliyin və ləyaqətin qoruyucusudur. Bu ordu Ulu Öndər Heydər Əliyevin şah əsərlərindən biridir. Hələ 1970-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması ilə Azərbaycanın gələcək hərbi elitasının formalaşdırılması prosesi başlayıb.

Səlahiyyətli nümayəndə vurğulayıb ki, Ulu Öndərin siyasi



kursunu uğurla davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu regionun ən güclü ordularından birinə çevrilib. Bunun ən parlaq nəticəsi özünü 2020-ci ildə göstərdi. 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu şəhidlərimizin qanı, qazilərimizin canı bahasına tarixi ədaləti bərpa etdi. Bu, sadəcə, hərbi qələbə deyil, bir millətin dirçəlişi, bir xalqın iradəsinin təntənəsi idi.

“Əziz gənclər! Qarşıda sizi çətin, lakin şərəfli bir yol gözləyir. Bu yolda sizi yalnız bilik, sədaqət və vətənpərvərlik irəli aparacaq. Unutmayın, siz Azərbaycan Ordusunun üzvüsünüz. Siz qalib xalqın övladısınız. Siz şəhidlərin mirasını daşıyırsınız!” – deyən Fuad Nəcəfli qeyd edib ki, Azərbaycanın sabahı Heydər Əliyev adına Hərbi Liseyin kursantları kimi mərd və vətənpərvər gənclərlə daha da güclü olacaq.



Heydər Əliyev adına Hərbi Liseyin rəisi, polkovnik Rəşad Əsgərov çıxışında bildirib ki, 44 günlük Vətən müharibəsində və digər hərbi əməliyyatlarda hərbi liseyin məzunları yüksək döyüş və peşəkarlıq nümunəsi göstəriblər. Liseyin məzunlarından 4-ü “Vətən Müharibəsi Qəhrəmanı” fəxri adına layiq görülüb, 96-sı isə şəhidlik zirvəsinə ucalıb. Hazırda onlarla məzun dünyanın müxtəlif hərbi akademiyalarında – Türkiyə Respublikasında, Rusiya Federasiyasında, İtaliya və Cənubi Koreya kimi inkişaf etmiş ölkələrdə təhsillərini davam etdirirlər. Bu ilin fevral ayında Cənubi Koreya Respublikasının Quru Qoşunları Akademiyasında keçirilən beynəlxalq təlimlərdə



birinci yeri tutaraq həmin ölkənin milli müdafiə naziri tərəfindən “Koreya Quru Qoşunlarının Xidmətində Fərqlənmə” medalı ilə təltif olunan kursantın da məhz Heydər Əliyev adına Hərbi Liseyin məzunu olması, liseyin beynəlxalq səviyyədə qazandığı nüfuzun və yüksək hazırlıq səviyyəsinin əyani sübutudur.

ardı 10-cu səhifədə

# Regional inkişaf trayektoriyası: *nailiyyətlər və gələcəyə baxış*



*Müasir dövlət idarəçiliyində regionların sosial-iqtisadi inkişafı mühüm prioritetlərdən biri kimi çıxış edir. Regionların bərabər inkişafının təmin olunması, əhalinin rifah səviyyəsinin yüksəldilməsi, iqtisadi aktivliyin bütün ölkə üzrə balanslı şəkildə yayılması bu istiqamətdə həyata keçirilən siyasətin əsas məqsədlərindəndir. Azərbaycan Respublikasında regionların inkişafı siyasəti kompleks və mərhələli yanaşmaya əsaslanmaqla uzunmüddətli Dövlət proqramları çərçivəsində həyata keçirilir. İlk dəfə 2004-cü ildə qəbul olunan və sonrakı illərdə davam etdirilən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramları bölgələrin iqtisadi, sosial və infrastruktur potensialının gücləndirilməsində ciddi rol oynamışdır.*

**Müslüm CABBARZADƏ**
***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini, iqtisad üzrə fəlsəfə doktoru, dosent***

### *İnfrastruktur quruculuğu və sənaye təşəbbüsləri*

Son 20 ildə regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş 4 Dövlət Proqramı çərçivəsində regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil etmişdir. Bu vəsaitlər, əsasən, infrastruktur sahələrin inkişafına yönəldilmişdir.

Bu çərçivədə həyata keçirilən tədbirlər nəticəsində yeni yollar, elektrik, qaz və su xətləri çəkilmiş, minlərlə ailənin sosial şəraiti yaxşılaşdırılmışdır. Kəndlərdə və rayon mərkəzlərində məktəblər, xəstəxanalar, mədəniyyət mərkəzləri, digər sosial obyektlər inşa olunmuş və ya bərpa edilmişdir. 17 min km-dən çox avtomobil yolu, 500-dən çox körpü və tunel istifadəyə verilmişdir. 8 hava limanı tikilmiş və ya yenidən qurulmuşdur. 3300-dən çox məktəb, 450-dən çox uşaq bağçası və 550-dən çox tibb müəssisəsi inşa edilmişdir. 41 Olimpiya İdman Kompleksi tikilmiş və ya təmir olunmuşdur. Əlbəttə ki, bu siyahını uzatmaq və daha geniş şəkildə təqdim etmək mümkündür.

Eyni zamanda kənd təsərrüfatının inkişafı üçün aqroparklar, emal müəssisələri və logistika mərkəzləri yaradılmış, kənd əhalisinin istehsal etdiyi məhsulların bazara çıxışı asanlaşdırılmışdır. Dövlət proqramları çərçivəsində sənaye zonalarının və iqtisadi klasterlərin yaradılması regional iqtisadiyyatın dayanıqlılığını artıran mühüm amillərdən birinə çevrilmişdir.

Bunun nəticəsidir ki, Gəncə, Mingəçevir, Şəki, Sumqayıt və digər sənaye mərkəzlərində fəaliyyət göstərən müəssisələr yerli əhalinin məşğulluq imkanlarını artırmaqla yanaşı, daxili bazarın ehtiyaclarının ödənilməsində və ixrac potensialının güclənməsində əhəmiyyətli yer tutur.

### *Rəqəmsal və sosial xidmətlərin regionlara inteqrasiyası*

Rəqəmsallaşma prosesləri regionların sosial-iqtisadi inkişafının mühüm komponentlərindən biridir. Elektron hökumət, internet üzərindən xidmətlər, rəqəmsal bacarıqların inkişaf etdirilməsi, regionlarda "ASAN xidmət" mərkəzlərinin yaradılması əhalinin dövlət xidmətlərinə əlçatanlığını artırmış, vətəndaş məmnuniyyətinin yüksəlməsinə səbəb olmuşdur.

Regionlarda yeni təhsil müəssisələri, universitetlər yaradılmış, gənclərin təhsil alması, asudə vaxtlarının səmərəli təşkili və sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilmişdir.

Son 20 ildə regionlarda iki universitet, bir institut, səkkiz universitet filialı olmaqla, on ali təhsil müəssisəsi yaradılmış və fəaliyyətə başlamışdır. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə yaradılmış Qarabağ Universiteti işğaldan azad edilmiş ərazilərdə yaradılan ilk universitetdir.

### *Yeni regional inkişaf mərhələsinin başlanğıcı*

Azərbaycanın 2020-ci ildə qazandığı tarixi Zəfər, ölkəmizin ərazi bütövlüyünün bərpası yeni iqtisadi və sosial inkişaf mərhələsinin başlanğıcı olmuşdur. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur əraziləri artıq suveren Azərbaycanın regional inkişaf xəritəsində strateji bölgələr kimi formalaşır. Bu ərazilərin dirçəldilməsi, əslində, bütün ölkənin iqtisadi xəritəsini yenidən cızır və yeni inkişaf modelinin tətbiqini zəruri edir.

İşğaldan azad edilmiş ərazilərin bərpası ilə regionların inkişafı sahəsində yeni bir mərhələ başlanmışdır. Ölkə Prezidentinin tapşırığı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən yenidənqurma işləri "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyalarına əsaslanır.

Bu prosesin əsas xüsusiyyəti ondan ibarətdir ki, burada ənənəvi inkişaf üsulları deyil, müasir və innovativ yanaşmalardan istifadə olunur. Bu yanaşma gələcəkdə ölkənin digər bölgələrinə də tətbiq oluna biləcək innovativ regional inkişaf modelinin əsasını təşkil edir.

### *Ağıllı və dayanıqlı infrastrukturun qurulması*

Bu model çərçivəsində infrastruktur tamamilə yenidən, müasir texnologiyalara əsaslanaraq qurulur. Artıq Zəngilan rayonunun Ağalı kəndində ilk "Ağıllı kənd" layihəsi uğurla həyata keçirilmişdir. Burada yaşayış evləri, məktəb, klinika, iş yerləri və enerji sistemləri "smart texnologiyalar"la təchiz olunmuşdur. Bu nümunə bölgədəki digər yaşayış məntəqələri üçün də model kimi istifadə olunacaqdır. Artıq Füzuli rayonunun Dövlətyarlı, Ağdam rayonunun Baş Qərvənd kəndlərində "Ağıllı kənd" layihələrinin icrası istiqamətində işlər aparılır.

Eyni zamanda Laçın, Füzuli, Şuşa və Kəlbəcər rayonlarında irimiqyaslı infrastruktur layihələri icra olunur, yollar, su anbarları, elektrik xətləri, dəmir yolları inşa edilir. Bu da regionun nəqliyyat-logistika baxımından mühüm qovşağa çevrilməsinə imkan yaradır.

### *"Yaşıl enerji zonası" – ekoloji və iqtisadi sintez*

Qarabağ və Şərqi Zəngəzurun inkişafında əsas prioritetlərdən biri ekoloji baxımdan təmiz, "yaşıl iqtisadiyyat" modelidir. Bu regionda bərpa olunan enerji mənbələri – günəş və külək enerjisi üzrə böyük potensial mövcuddur. Mütəxəssislər tərəfindən sözügedən ərazilərdə günəş və külək enerjisi potensialı 10 qiqavat gücündə qiymətləndirilir.

Ölkə Prezidentinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" 2021-ci il 3 may tarixli Sərəncamı ilə həmin bölgələrdə "yaşıl enerji" zonasının yaradılması üçün müvafiq qurumlara tapşırıqlar verilmişdir.

Zəngilan və Cəbrayıl rayonlarında artıq günəş elektrik stansiyalarının tikintisi ilə əlaqədar işlərə başlanılmışdır. Bu layihələrin reallaşdırılması yerli enerji təminatının yaxşılaşdırılması ilə yanaşı, ölkənin enerji ixrac qabiliyyətini də artıracaqdır. Azərbaycan dövlətinin imzaladığı beynəlxalq enerji müqavilələri Qarabağın "yaşıl enerji mərkəzi" kimi formalaşmasında mühüm rol oynayır.

### *Sosial-iqtisadi dirçəliş və əhalinin məskunlaşdırılması*

Yeni regional model yalnız iqtisadi göstəricilərlə deyil, həm də insan amili ilə ölçülür. Dövlət azad edilmiş ərazilərdə müasir yaşayış infrastrukturu inşa edir, əhalinin doğma yurda qayıdışı üçün lazımi şərait yaradır. Qayıdış proqramı çərçivəsində minlərlə insan öz ata-baba torpaqlarına qayıdıb və bu proses davam edir. Bərpa olunan hər bir kənd və şəhər, əslində, suverenliyin, sosial bərabərliyin və milli həmrəyliyin iqtisadi təzahürüdür.

Qarabağ və Şərqi Zəngəzurun iqtisadi sistemə reinteqrasiyası yerli resursların iqtisadi dövriyyəyə daxil edilməsi, ixrac potensialının genişlənməsi, kənd təsərrüfatında məhsuldarlığın artırılması baxımından böyük imkanlar açır. Bu bölgələr həm də sərhəd ticarəti, tranzit, logistika, turizm və sənaye baxımından yeni iqtisadi mərkəzlərə çevriləcəkdir. Beləliklə, bu ərazilərin inkişafı təkcə lokal deyil, ümumrespublika səviyyəsində iqtisadi artıma birbaşa töhfə verəcəkdir.

Qarabağ və Şərqi Zəngəzurda formalaşan yeni regional inkişaf trendi Azərbaycanın gələcək iqtisadi strategiyasının avanqardı kimi çıxış edir. Burada tətbiq edilən smart və "yaşıl texnologiyalar", habelə insan mərkəzli idarəetmə modeli, bütövlükdə, ölkəmizin digər regionlarına da nümunə olacaqdır. Bu model dayanıqlı, rəqabətqabiliyyətli və innovativ iqtisadiyyatla Azərbaycanı gələcəyə aparan yol xəritəsidir.

### *Naxçıvan: yeni iqtisadi reallıqlar və prioritetlər*

Azərbaycanın çoxəsrlik tarixində özünəməxsus yeri olan, zəngin ictimai-siyasi və elmi-mədəni irsə, geosiyasi əhəmiyyətə malik regionlarından biri də Naxçıvan Muxtar Respublikasıdır. Ulu Öndər hakimiyyətinin bütün dövrlərində Naxçıvanı daim diqqətdə saxlamış, muxtar respublikanın tərəqqisi ilə bağlı ən vacib qərarların təşəbbüskarı və müəllifi olmuşdur. Naxçıvan uzun müddət ağır blokada şəraitində yaşasa da, dövlət başçımız Prezident İlham Əliyevin davamlı diqqət və qayğısı sayəsində ölkənin ümumi inkişaf xəttindən geri qalmamışdır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı sahəsində 2004-cü ildən etibarən qəbul edilmiş Dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın inkişafı, yeni müəssisə və obyektlərin yaradılması, infrastrukturun yenilənməsi ilə nəticələnmişdir.

Bundan əlavə, hər il Naxçıvanın sosial-iqtisadi inkişafı ilə bağlı ayrıca qərarlar qəbul edilmişdir. Təkcə son 5 il ərzində ölkə Prezidenti tərəfindən Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının müxtəlif sahələrinin inkişafını tənzimləyən 10 Fərman və Sərəncam imzalanmışdır.

Şərur Sənaye Məhəlləsinin yaradılması barədə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə Naxçıvanda ilk sənaye məhəlləsinin yaradılmasına başlanmışdır.

Naxçıvan Muxtar Respublikasında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 may tarixli Sərəncamı mühüm sosial və iqtisadi əhəmiyyətli infrastruktur sahəsinin inkişafına hədəflənmişdir. Ordubad Su Elektrik Stansiyasının tikintisinin davam etdirilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 iyul tarixli Sərəncamı muxtar respublikanın "yaşıl enerji" potensialının iqtisadi dövriyyəyə daxil edilməsi istiqamətində mühüm addımdır.

"Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 aprel tarixli Fərmanı Naxçıvan üçün olduqca böyük əhəmiyyətə malik yeni və şaxələndirilmiş kommunikasiya infrastrukturunun reallaşdırılmasına xidmət edir.

Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 noyabr tarixli Fərmanı ilə müvafiq sahələrdə yeni idarəetmə modellərinin tətbiqinə başlanmışdır.

Naxçıvan Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2024-ü il 5 dekabr tarixli Fərmanı ilə Naxçıvan şəhərindən 12 kilometr cənub-qərbdə, Naxçıvan-Sədərək avtomagistralı üzərində 310 hektar torpaq sahəsi ayrılmış, ərazinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun yaradılması üçün layihələndirmə işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə vəsait ayrılmışdır.






Naxçıvan Muxtar Respublikasında yeni istilik elektrik stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli Sərəncamının icrası yaxın gələcəkdə Naxçıvanda elektrik enerjisi istehsalının artırılmasını və elektrik enerjisi ixracının həyata keçirilməsini təmin edəcəkdir.

Qaz təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında Qaz İstismar Xidmətinin funksiyalarının Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə ötürülməsi qaz təsərrüfatının sağlamlaşdırılması və dayanıqlı qaz təminatının həyata keçirilməsi üçün mühüm addımdır.

Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 mart tarixli Sərəncamı Naxçıvan şəhərinin ictimai nəqliyyat sisteminin inkişafı üçün mühüm töhfə verəcəkdir.

Sərəncamla sərnişin daşımalarının yalnız elektrik mühərrikli avtobuslarla təşkili məqsədilə 60 ədəd belə avtobusun alınması və enerjidoldurma cihazlarının quraşdırılması, habelə həmin avtobuslara xidmət səviyyəsinin yüksəldilməsi üçün depo infrastrukturunun təkmilləşdirilməsi məqsədilə 33 milyon 449 min manat vəsait ayrılmışdır.

### *Regionun sosial-iqtisadi inkişafına dair yeni Dövlət Proqramı*

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı isə regionun inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur.

Dövlət Proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsi, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün 2023-2027-ci illər üzrə 11 prioritet istiqamət müəyyən olunmuş, Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı icrası planlaşdırılan bütün tədbirlər həmin prioritet istiqamətlər üzrə qruplaşdırılmışdır.

**DÖVLƏT PROQRAMININ PRİORİTET İSTİQAMƏTLƏRİ**

PRİORİTETLƏR

1. ƏLVERİŞLİ BİZNES MÜHİTİNİN YARADILMASI
2. TİCARƏTİN İNKİŞAFI
3. İXRACYÖNLÜ SƏNAYENİN İNKİŞAFI
4. KƏND TƏSƏRRÜFATI MƏHSULLARI İSTEHSALININ VƏ EMALININ İNKİŞAFI
5. TURİZMİN İNKİŞAFI
6. ELEKTRİK ENERJİSİ İSTEHSALININ VƏ İXRACININ ARTIRILMASI
7. İNFRASTRUKTUR TƏMİNATININ İNKİŞAFI
8. SOSİAL SEKTORUN İNKİŞAFI
9. İNSAN KAPİTALININ İNKİŞAFI
10. İNSTİTUSİONAL İNKİŞAF
11. ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNİN GÜCLƏNDİRİLMƏSİ

Naxçıvan Muxtar Respublikasının iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından və tranzit imkanlarından səmərəli istifadə etməklə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı tədbirlər sözügedən prioritet istiqamətlər nəzərə alınmaqla gerçəkləşdiriləcəkdir.

### *İğdır-Naxçıvan qaz kəməri*

Azərbaycanın uğurlu enerji diplomatiyası regionda iqtisadi güc balansını yenidən formalaşdırmışdır. Artıq Azərbaycan nefti və qazı Avropanın enerji təhlükəsizliyinin ayrılmaz hissəsinə çevrilmişdir. Ötən il ölkəmizin qaz ixracatı 25 milyard kubmetrə çatmışdır. Bu həcmin yarıya qədəri qardaş Türkiyəyə, qalan hissəsi 10 Avropa ölkəsi də daxil olmaqla, ümumilikdə, 12 ölkəyə ixrac edilməkdədir.

Bununla bərabər, ölkənin regionlarının, xüsusilə də eksklav şəraitə malik Naxçıvan Muxtar Respublikasının etibarlı enerji təminatı prioritet məsələ kimi diqqətdə saxlanılmışdır. Bunun bariz nümunəsi olan və bir müddət əvvəl açılış mərasiminə şahidlik etdiyimiz İğdır-Naxçıvan qaz kəməri dayanıqlı enerji təminatı, həm də Türk dünyasının bütövlüyünə və güclənməsinə xidmət missiyasını yerinə yetirir.

Ötən illər ərzində reallaşdırılmış Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TANAP kimi nəhəng enerji layihələri iki qardaş ölkə arasında iqtisadi bağlılığı daha da möhkəmləndirmişdir.

İğdır-Naxçıvan qaz kəməri isə bu uğurlu enerji əməkdaşlığının yeni mərhələsidir. Cəmi 97,5 kilometr uzunluğu olan və gündəlik 2 milyon kubmetr qaz nəql etmək gücünə malik kəmər muxtar respublikanın enerji təhlükəsizliyini möhkəmləndirməklə yanaşı, onun iqtisadi inkişafına da ciddi təkan verəcəkdir.




Bu kəmər vasitəsilə Naxçıvan svop mexanizmi ilə Türkiyə üzərindən Azərbaycan qazını alacaq və bununla da enerji təchizatında bir mənbədən asılılıq faktoruna son qoyulacaqdır.

Yeni layihə muxtar respublikanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, onun sənaye potensialını da gücləndirməyə dayanıqlı enerji təminatı yaradacaqdır. Naxçıvanda istehsal sahələri genişlənəcək, investisiya qoyuluşu artacaq və sosial rifah daha da yüksələcəkdir.

Digər mühüm məqam isə geosiyasi perspektivdir. Azərbaycan və Türkiyə arasında energetika sahəsindəki əməkdaşlıq bu layihə ilə yeni mərhələyə yüksəlir və regionun enerji xəritəsində tarixi bir dönüş nöqtəsinə çevrilir.

### *Zəngəzur dəhlizi*

Gələcəyə baxarkən regional inkişaf trayektoriyasının ən mühüm istiqamətlərindən birinin Zəngəzur dəhlizi olacağı şübhəsizdir.

Tarixi zəfərimizin doğurduğu reallıqlardan irəli gələn və Prezident İlham Əliyev tərəfindən siyasi leksikona əlavə edilmiş Zəngəzur dəhlizi regionun nəqliyyat və ticarət xəritəsini tamamilə dəyişəcək strateji bir layihədir.




Bu layihənin reallaşması həm ölkəmiz, həm region dövlətləri, həm də daha geniş geosiyasi məkan üçün mühüm nəticələr doğuracaqdır.

Əvvəla, Zəngəzur dəhlizi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru bağlantını təmin etməklə, uzun illər davam edən kommunikasiya blokadasına son qoyacaqdır. Bu həm Naxçıvanın sosial-iqtisadi inkişafına, həm də əhalinin rahatlığına birbaşa təsir göstərəcəkdir.

İkincisi, bu dəhliz Orta Dəhliz adlanan beynəlxalq nəqliyyat marşrutunun bir hissəsinə çevriləcəkdir. Çin, Mərkəzi Asiya, Xəzər dənizi və Azərbaycan üzərindən Avropaya qədər uzanan ticarət yollarının mühüm bir qovşağı Zəngəzurdan keçəcəkdir. Bu isə ölkəmizin tranzit potensialını gücləndirəcək və beynəlxalq nüfuzunu daha da artıracaqdır.

Üçüncüsü, dəhlizin açılması regionda sülh və əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcək, Cənubi Qafqaz ölkələri arasında qarşılıqlı əlaqələri gücləndirəcək, sabitlik və inkişafa yol açacaqdır.

Eyni zamanda dəhliz yeni iş yerlərinin yaradılması, infrastrukturun inkişafı və turizm imkanlarının genişlənməsi baxımından da mühüm rola malik olacaqdır. Bu, təkcə iqtisadi deyil, həm də sosial rifahın yüksəlməsi deməkdir.

### *Qars-İğdır-Naxçıvan dəmir yolu*

Regional inkişaf trayektoriyasının yaxın gələcəkdə reallaşacaq daha bir hissəsi isə Qars-İğdır-Naxçıvan dəmir yoludur. Bu layihə Zəngəzur dəhlizinin bir hissəsidir. Qars-Naxçıvan dəmir yolu Azərbaycan və Türkiyə arasında yeni nəqliyyat bağlantısı yaratmaqla, eyni zamanda qlobal nəqliyyat və ticarət marşrutlarının əsas arteriyalarından birinə çevriləcəkdir.




Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə inteqrasiya olunması planlaşdırılan bu marşrut, Avropa və Asiya arasında ticarət əlaqələrini genişləndirəcək, beynəlxalq yük daşımalarında yeni perspektivlər yaradacaqdır. Beləliklə, bu layihə, sadəcə, bir nəqliyyat infrastrukturu deyil, tarixi, iqtisadi və strateji baxımdan çoxşaxəli bir təşəbbüs kimi dəyərləndirilməlidir.

Qars-İğdır-Naxçıvan dəmir yolu xəttinin uzunluğu 224 kilometr olmaqla, 5 il ərzində tamamlanması planlaşdırılır. Bu layihə Naxçıvanın iqtisadi inkişafı üçün mühüm bir mərhələdir. Yeni dəmir yolu xətti ilə muxtar respublikaya yük və sərnişin axını artacaq, bu da yerli biznesin canlanmasına, yeni iş yerlərinin açılmasına və xidmət sektorunun genişlənməsinə səbəb olacaqdır.

### *İran İslam Respublikasının ərazisi vasitəsilə kommunikasiyalar*

İran İslam Respublikası ilə imzalanmış anlaşma memorandumuna uyğun olaraq Şərqi Zəngəzur iqtisadi rayonunu Naxçıvan Muxtar Respublikası ilə birləşdirən ən qısa və səmərəli nəqliyyat bağlantısı imkanı əldə ediləcəkdir. Bu yol Şərq-Qərb nəqliyyat dəhlizinin əsas komponentlərindən biri olacaqdır.




İnşası davam etdirilən Horadiz-Ağbənd dəmir yolu xətti regionun əsas nəqliyyat xətlərindən biri olmaqla yanaşı, həm müxtəlif nəqliyyat kommunikasiyalarının şaxələndirilməsi, həm də beynəlxalq yük daşımaların səmərəli təşkili üçün yeni imkanlar yaradacaqdır.

Layihələrin reallaşması ilə ikitərəfli və regional nəqliyyat-tranzit əlaqələrinin, yük daşımaların artırılması, logistik imkanların genişlənməsi və ümumilikdə, geniş kommunikasiya bağlantılarının yaradılması mümkün olacaqdır.

### *Naxçıvan: "yaşıl enerji" layihələri*

Ölkənin regional inkişaf trayektoriyasında Naxçıvanın enerji təhlükəsizliyini möhkəmləndirən və onu enerji mərkəzinə çevirən yeni bir inkişaf mərhələsi başlanır. Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanın "yaşıl enerji zonası" elan edilməsi də dövlət başçısının mütərəqqi inkişaf siyasətinin təzahürüdür.

Naxçıvan Muxtar Respublikasında günəş və külək elektrik stansiyalarının quraşdırılması üçün 8 min hektara yaxın kənd təsərrüfatına yararsız torpaqlar bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmişdir.




2023-cü ilin iyun ayında "Bakı Enerji Həftəsi-2023" çərçivəsində Naxçıvanda keçirilən "Naxçıvan və Şərqi Zəngəzurun "yaşıl enerji" potensialı" mövzusunda xüsusi sessiyada "Total Energies" və "Nobel Energy Management" şirkətləri ilə ümumi gücü 900 meqavat olan günəş və külək enerjisi layihələri üzrə əməkdaşlıq sənədləri imzalanmışdır. Bu güclərin 650 meqavatı məhz Naxçıvanda yaradılacaqdır. Nəzərdə tutulan "yaşıl enerji" layihələri həm Naxçıvanı, həm də Şərqi Zəngəzuru "yaşıl enerji"nin istehsal və istehlakı ilə bərabər ixracının da mənbə və marşrutuna çevirəcəkdir.

Regional iqtisadi inkişafda bu gün əldə olunmuş nəticələr və gələcək gözləntilər, iqtisadiyyatımızın gücləndirilməsi ilə yanaşı, eyni zamanda milli suverenliyin qorunması və möhkəmləndirilməsi üçün etibarlı zəmin yaradır. Ölkəmizin öz iqtisadi potensialını artırmaq və malik olduğu resurslardan daha səmərəli istifadə etmək hüququ, onun suverenliyinin iqtisadi ifadəsidir. Suverenlik, yalnız siyasi müstəqillik deyil, həm də iqtisadi müstəqilliyi təmin edən vacib bir prinsipdir.

Regional inkişaf xəttinin davam etdirilməsi daxili resurslar hesabına ölkəmizin xarici təsirlərdən asılılığını azaldacaq, iqtisadi müstəqilliyin möhkəmləndirilməsinə xidmət edəcək, beynəlxalq münasibətlərdə və ticarətdə mövqeyini daha da gücləndirəcəkdir.

(əvvəli 7-ci səhifədə)

Vətən müharibəsi şəhidi Şükür Hacıyevin anası Fatma Şükürlü tarixi Zəfərimizin qazanılmasında Heydər Əliyev adına Hərbi Liseyin məzunlarının da böyük rolu olduğunu vurğulayıb, kursantlara təhsillərində uğurlar



arzulayıb.

Hərbi liseyin məzunu Ağa Əlizadə 25-ci buraxılış məzunları adından savadlı, bacarıqlı və vətənpərvər kursantlar kimi təhsil almalarında əməyi olan komandir və müəllimlərinə, eləcə də göstərdikləri dəstəyə görə valideynlərinə minnətdarlığını bildirib, məzun yoldaşlarını təbrik edib.

Sonra hərbi liseyin fəaliyyətində fərqlənən zabit və müəllimlərə fəxri fərmanlar, məzunlara isə attestat və hədiyyələr təqdim edilib.



Səlahiyyətli nümayəndə hərbi liseyin pedaqoji heyəti ilə görüşüb, kursantların vətənpərvər ruhda, bacarıqlı kadr kimi yetişməsi üçün müəllimlərin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb, onlara şərəfli fəaliyyətlərində uğurlar arzulayıb.

Kursant Fərid Abbasov təhsil ocağının rəmzi kötüyünə 2025-ci ilin xatirə lövhəsini vurduqdan sonra döyüş bayrağı növbəti buraxılışın kursantlarına təhvil verilib.

Orkestrin müşayiəti ilə hərbi liseyin marşı ifa edilib, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçib.

Səlahiyyətli nümayəndə Ümummilli Liderimiz Heydər Əliyevin hərbi liseydəki büstü önündə məzun kursantlarla xatirə şəkli çəkdirib.

## Azərbaycan nümayəndə heyəti İkinci Maku Azad Zona İqtisadi Forumunda iştirak edib



İyunun 11-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədlinin rəhbərlik etdiyi nümayəndə heyəti İran İslam Respublikasının Qərbi Azərbaycan vilayətinin Maku şəhərində keçirilən İkinci Maku Azad Zona İqtisadi Forumunda iştirak edib.

Maku Azad İqtisadi Zonanın icraçı direktoru Hossein Garuisi tədbiri açaraq forumun əhəmiyyətindən və Maku Azad İqtisadi Zonanın imkanlarından bəhs edib.

Sonra Qərbi Azərbaycan valisi – ostandarı Reza Rahmani, İran Azad Ticarət Zonalarının baş direktoru Reza Masrur, İran Prezidentinin müşaviri Muhammed Nuri və digər rəsmi şəxslərin çıxışları olub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli tədbirdə çıxış edərək dəvətə və göstərilən qonaqpərvərliyə görə nümayəndə heyəti adından təşəkkürünü bildirib. Ölkələrimiz arasındakı əlaqələrdən danışan Samir Seyidəhmədli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu sahədə görülən işləri, xüsusilə də ikitərəfli əməkdaşlığın prioritet istiqamətlərini diqqətə çatdırıb. Səlahiyyətli nümayəndənin müavini Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasındakı əlaqələrə də toxunub, forumun ikitərəfli münasibətlərin inkişafındakı əhəmiyyətini vurğulayıb.

Forum çərçivəsində mədəniyyət, turizm, infrastruktur, nəqliyyat, sənaye, aqrar və kənd təsərrüfatı sahələri üzrə panel müzakirələr keçirilib.

Qeyd edək ki, Azərbaycan nümayəndə heyətinin tərkibində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdiri Orxan Babayev, Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini Tapdıq Əliyev, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı idarəsinin rəisi Vüsal Ələkbərli, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Malik Rzayev, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının İdarə Heyətinin sədri, Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti Vüqar Abbasov və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Teymur Rzayev də təmsil olunublar.

## Azərbaycan nümayəndə heyəti Urmiya şəhərində “Qərbi Azərbaycanın investisiya imkanlarına dair” beynəlxalq konfransda iştirak edib



İyunun 12-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədlinin rəhbərlik etdiyi nümayəndə heyəti İran İslam Respublikasının Qərbi Azərbaycan vilayətinin Urmiya şəhərində keçirilən “Qərbi Azərbaycan investisiya imkanlarına dair” beynəlxalq konfransda iştirak edib.

Qərbi Azərbaycan valisi-ostandarı Reza Rahmani konfransı açaraq iştirakçıları salamlayıb, investisiya imkanları barədə geniş məlumat verib.

Konfransda Qərbi Azərbaycanın investisiya imkanları ilə bağlı çıxış və müzakirələr dinlənilib, videotəqdimatlar olub, əməkdaşlıq məsələləri müzakirə edilib.

Qeyd edək ki, Azərbaycan nümayəndə heyətinin tərkibində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdiri Orxan Babayev, Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini Tapdıq Əliyev, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı idarəsinin rəisi Vüsal Ələkbərli, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının İdarə Heyətinin sədri, Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti Vüqar Abbasov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Teymur Rzayev və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Malik Rzayev də təmsil olunub.

## İ.T.Novruzovaya “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsinin müvəqqəti icrasının həvalə edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsinin müvəqqəti icrası “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini Novruzova İlhamə Tofiq qızına həvalə edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini**
**Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 12 iyun 2025-ci il*

## S.A.Tahirlinin “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

Sahil Abdulla oğlu Tahirli “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini**
**Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 12 iyun 2025-ci il*

## Ali Məclisin İqtisadi siyasət komitəsinin iclası keçirilib



İyunun 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclası keçirilib.

Komitə sədri Emin Şıxəliyev gündəlikdə duran məsələnin “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsi olduğunu bildirib.

Gündəlik təsdiq olunduqdan sonra komitə sədri diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin faktiki icrası barədə illik hesabat və müvafiq qanun layihəsi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən Ali Məclisə təqdim olunub.

Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov qanun layihəsi barədə məlumat verib.

Gündəlikdə duran məsələ ətrafında müzakirələr aparıldıqdan sonra komitənin rəyi oxunub, “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# “Qərbi Azərbaycan: tarixi, mədəniyyəti və Böyük Qayıdış” adlı respublika elmi konfransı keçirilib





“Qərbi Azərbaycan: tarixi, mədəniyyəti və Böyük Qayıdış” mövzusunda respublika elmi konfransı keçirilib.

Konfrans Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyası, AMEA Naxçıvan Bölməsi, Qərbi Azərbaycan İcması və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə baş tutub.

Konfransdan əvvəl Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi və Heydər Əliyev Muzeyi ziyarət edilib. Qonaqlar Ümummilli Liderin həyatı, fəaliyyəti və zəngin dövlətçilik irsinə həsr olunmuş ekspozisiya nümunələri ilə tanış olublar.

Daha sonra “Qərbi Azərbaycan: tarixi, mədəniyyəti və Böyük Qayıdış” adlı sərgiyə baxış keçirilib.

Plenar iclas AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin çıxışı ilə başlamışdır. O, Azərbaycan xalqına qarşı törədilən soyqırımı və deportasiyalardan danışıb. Bildirib ki, müəyyən dövrlərdə həyata keçirilən deportasiyaların nəticəsində 300 minə yaxın azərbaycanlı öz doğma yurdundan ayrı düşüb. Son dövrlərdə Qərbi Azərbaycana həsr olunmuş həm beynəlxalq, həm də respublika səviyyəli tədbirlərin sayının artmasına diqqətçəkən İsmayıl Hacıyev bu məsələnin əhəmiyyətini qeyd edib.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov çıxışında ölkəmizin inkişafındakı siyasi gedişatlara diqqət çəkib. Bu tərəqqinin baş tutmasında Prezident İlham Əliyevin yeritdiyi sülhməramlı siyasət, milli birliyimiz və ordumuzun hesabına olduğunu vurğulayıb. Baş nazir Qərbi Azərbaycana məxsus toponimlərin, dil faktorlarının, abidələrin və digər mədəniyyət nümunələrinin araşdırılmasında elmi əsaslar ortaya qoyan elm adamlarına uğurlar arzulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli İlham Əliyevin sülhə və əməkdaşlığa əsaslanan uzaqgörən siyasətinə diqqət çəkib. 44 günlük müharibənin uğurlu nəticələrindən, AMEA-da Qərbi Azərbaycanın tarixinin və folklorunun araşdırılması üçün açılan şöbələrdən danışıb. Çıxışın sonunda akademik İsa Həbibbəylinin ön sözü ilə işıq üzü görmüş “Naxçıvanın bir əsrlik biblioqrafik salnaməsi” adlı kitabını Ceyhun Cəlilova hədiyyə edib.

Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, Qərbi Azərbaycan İcmasının Amasiya rayonu üzrə icmanın sədri Abel Məhərrəmov Naxçıvan və Qərbi Azərbaycanın tarixindəki oxşarlıqlardan və Qərbi Azərbaycan İcmasının fəaliyyətindən söz açıb.

Növbəti çıxışçı – Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev Qərbi Azərbaycanın araşdırılmasına həsr olunmuş fundamental tədqiqatlara diqqət çəkib. Bu araşdırmaların gənc tədqiqatçılar üçün yeni üfüqlər açdığını qeyd edib. Elbrus İsayev Qərbi Azərbaycanla bağlı universitetdə görülən işlərə diqqət çəkib.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Keşkənd rayon icmasının sədri, professor Mahirə Hüseynova Qərbi Azərbaycan toponimlərinin dəyişdirilməsi və bu sahədə Azərbaycan alimlərinin öhdəliklərindən ətraflı şəkildə danışıb. Toponimlərin araşdırılmasına diqqətçəkən professor adı dəyişdirilən ərazilərimizdən söz açıb.



İğdır Universitetinin Fənn ədəbiyyatı fakültəsinin dosenti, coğrafiya üzrə fəlsəfə doktoru Oğuz Şimşək Qərbi Azərbaycanın tarixi haqqında dəqiq məlumatlarla çıxış edib. Tarixi ərazilərimizi slaydlar vasitəsilə konfrans iştirakçılarına nümayiş etdirib. İrəvana həsr olunmuş şeiri səsləndirən Oğuz Şimşək erməni vəhşiliklərindən də söz açıb. Məqsədli şəkildə adı dəyişdirilən kəndlərimizin tarixindən bəhs edib.

AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri, professor Cəbi Bəhramov Qərbi Azərbaycanın tarixi və mədəniyyətinin tədqiq edilməsindən ətraflı şəkildə danışıb. Tarixi torpaqlarımızın mədəniyyətimizin dəqiq mənbələrə əsaslanaraq araşdırılmasının əhəmiyyətini qeyd edib.

Konfransda tarixin müəyyən dövrlərində Qərbi Azərbaycan torpaqlarında baş verən hadisələrdən, deportasiyalardan bəhs edilib, sakinlərin doğma torpaqlarına qayıtmaq istəyindən söz açılıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə Böyük Qayıdışın baş tutması, tarixi torpaqlarımızın bərpa olunması kimi məsələlər barədə ətraflı müzakirələr aparılıb və təhlillər edilib.

Daha sonra “Biz qayıdacağıq” sənədli filminə baxış keçirilib.

# Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında fəal olan qadınlardan ibarət nümayəndə heyəti Bakıda keçirilən iclasda iştirak ediblər



İyun ayının 12-də Bakıda Türk Dövlətləri Təşkilatının ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazir və qurum rəhbərlərinin 2-ci iclası keçirilib.

İclas çərçivəsində Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyi tərəfindən “Güclü ailələr, güclü toplumlar: TDT ölkələrində ailəni dəstəkləyici siyasətlər”, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən “Orta dəhliz 360°: geosiyasətdən rəqəmsal transformasiyaya, ailədən yaşıl inkişafa” mövzularında 2 yan tədbir baş tutmuşdur.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında fəal olan qadınlardan ibarət nümayəndə heyəti də iştirak edib.

# “Naxçıvan xəbərləri” İnformasiya Portalının 10 illiyi qeyd olunub

İyunun 13-də “Naxçıvan xəbərləri” İnformasiya Portalının yaranmasının 10 illiyi münasibətilə tədbir keçirilib.

Tədbirdə giriş sözü ilə çıxış edən informasiya portalının təsisçi direktoru Mətin Abbaslı bildirib: “2015-ci ilin 15 iyun tarixində – xalqımız üçün əlamətdar bir gündə – Milli Qurtuluş Günündə fəaliyyətə başlayan “Naxçıvan xəbərləri” regionun ilk müstəqil xəbər portalı kimi meydana çıxaraq həm peşəkar jurnalistikanın inkişafına, həm də informasiya yayımının genişlənməsinə töhfə verməyə başladı”.

Vurğulanıb ki, bu illər ərzində informasiya portalı ictimai-siyasi hadisələrin operativ işıqlandırılmasında, iqtisadi və sosial islahatların təbliğində, regionun turizm və mədəni potensialının tanıdılmasında mühüm rol oynayıb. Həm muxtar respublikada, həm də onun hüdudlarından kənarda Naxçıvanın səsinin eşidilməsi üçün daim çalışılıb.

Qeyd olunub ki, bu gün gündəlik 1500-2000 arası istifadəçi sayı ilə portala olan maraq, sosial şəbəkə hesablarında ümumi olaraq 10 milyona yaxın baxış və 100 minə yaxın izləyici sayı fəaliyyətin cəmiyyət tərəfindən diqqətlə izlənildiyini və dəyərləndirildiyini göstərir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Rəmzi İbrahimov tədbirdə çıxış edərək qeyd edib ki, 10 il əvvəl yaranan “Naxçıvan xəbərləri” portalı bu müddətdə zamanın çağırışlarına uyğun şəkildə inkişaf edib, cəmiyyətin məlumatlandırılması, dövlət siyasətinin düzgün təbliği və ictimai rəyin formalaşması istiqamətində mühüm rol oynayıb. Portal öz fəaliyyətində daim operativlik, obyektivlik və məsuliyyət prinsiplərinə əsaslanıb.

Rəmzi İbrahimov vurğulayıb ki, son illərdə Naxçıvan Muxtar Respublikasında hərtərəfli inkişafın təmin olunmasında mühüm addımlar atılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci ilin sonlarında imzaladığı müvafiq Fərmanla Naxçıvanda yeni idarəçilik institutunun yaradılması regionda şəffaflıq, effektivlik və məsuliyyət kimi əsas prinsiplərin gücləndirilməsinə xidmət edir. Bu islahatlar yalnız iqtisadi, sosial və inzibati sahələrdə deyil, eyni zamanda media və informasiya sahəsində də müsbət dəyişikliklərə səbəb olub.

Bildirilib ki, yeni idarəçilik modeli çərçivəsində medianın institusional potensialı artıb, media orqanlarının fəaliyyətində şəffaflıq və peşəkarlıq meyarları ön plana keçib, informasiya siyasətində koordinasiya güclənib. Bu, bir tərəfdən jurnalistlərin fəaliyyətinə daha əlverişli şərait yaradıb, digər tərəfdən isə cəmiyyətin operativ və düzgün məlumatla təmin olunmasına geniş imkanlar açıb. “Naxçıvan xəbərləri” İnformasiya portalı da bu yeni mərhələdə öz fəaliyyətini daha da genişləndirərək informasiya cəmiyyətinin formalaşmasına töhfə verməyə davam edir.



Rəmzi İbrahimov portalın kollektivini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəhbərliyi adından təbrik edib, yeni uğurlar və yaradıcılıq nailiyyətləri arzulayıb.



“Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” QSC-nin sədr müavini, sədr vəzifələrini müvəqqəti icra edən İlhamə Novruzova və “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova Naxçıvanda media mühitinin inkişafında “Naxçıvan xəbərləri”nin rolunu yüksək qiymətləndiriblər.

“Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova çıxışında bildirib: “Bu platforma qısa müddət ərzində oxucu auditoriyası arasında geniş nüfuz qazanmaqla yanaşı, həm də media sahəsində çalışan gənclərə yeni bir nəfəs, fərqli bir jurnalistika baxışı gətirib.

“Naxçıvan xəbərləri” regionda baş verən hadisələri obyektiv və müasir təqdimatla çatdırmaqla seçilir. Xüsusilə vizual dizayn, xəbər dili və sosial şəbəkələrdə aktivlik baxımından bu portal digər media qurumları üçün də örnək sayıla bilər.

Biz “Şərq qapısı” redaksiyasında bu portalla əməkdaşlıq imkanlarını daim açıq saxlayırıq və qarşılıqlı dəstəklə Naxçıvanda daha sağlam, inkişaf etmiş bir media mühitinin formalaşmasına töhfə verməyə çalışırıq”.

Tədbirin yaddaqalan anlarından biri isə naxçıvanlı gənclərin yaratdığı “Robogenius” komandasına həsr olunan xəbər materialının təqdimatı olub. Sözügedən xəbər sosial şəbəkələrdə 2 milyondan çox baxış toplayaraq son 10 ildə portaldakı ən çox izlənən xəbər seçilib. Komandaya təşəkkürnamə təqdim olunub.

Sonra informasiya portalının fəaliyyətində rolu olan şəxslərə və əməkdaşlıq edənlərə təşəkkürnamə təqdim edilib.

Sonda “Naxçıvan xəbərləri” İnformasiya Portalının fəaliyyətini əks etdirən tanıtım videosu nümayiş olunub.

# Şuşa Bəyannaməsi: milli, siyasi həmrəylik nümunəsi

*Tarixdə iz qoyan, böyük dəyişikliklər yaradan mühüm tarixi sənədlər imzalanır ki, onun imzalandığı tarix və ərazi hər zaman böyük əhəmiyyət kəsb edir. Çünki illər sonra gələcək nəsillər bu tarixi və ərazini öyrənərkən məsələnin mahiyyətini və əhəmiyyətini daha dərindən dərk edirlər. Bu baxımdan Şuşa Bəyannaməsinin siyasi və tarixi əhəmiyyətini izah edən məsələ sənədin imzalanma tarixi, yəni 15 İyun – Milli Qurtuluş Günüdürsə, ikincisi onun Azərbaycanın mədəniyyət paytaxtı olaraq bilinən məkanda – Şuşada imzalanmasıdır. Əgər 32 il öncə 15 iyun tarixində Azərbaycanda vətəndaş müharibəsinin qarşısını Ümummilli Lider Heydər Əliyev aldısa, illər sonra eyni gündə Azərbaycanın torpaqlarını düşmən tapdağından azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa Bəyannaməsini imzaladı.*

Arzu ABDULLAYEV
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini*



## Prezident İlham ƏLİYEV:

***“Bu gün imzalanmış Birgə Bəyannamə – Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır”.***

15 iyun 2021-ci il tarixdə imzalanan Şuşa Bəyannaməsi müstəsna siyasi və tarixi əhəmiyyətə malikdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ***“Bir millət, iki dövlət”*** və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün *“Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”* kəlamları ilə xarakterizə olunan Azərbaycan-Türkiyə münasibətləri bununla öz zirvəsinə yüksəlib və yeni bir mərhələyə qədəm qoyub.

Bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkəmizin regional və beynəlxalq rolunu, çəkisini daha da artırır.

Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyənin mənəvi-siyasi dəstəyi xalqımız tərəfindən yüksək qiymətləndirilir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri bu sahədə səylərin artırılmasının zəruriliyini göstərən ən gözəl nümunədir.

Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sənədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Türkiyə və Azərbaycan qarşılıqlı maraqdoğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək eyni mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi ilə yanaşı, həmçinin BMT, ATƏT, Avropa Şurası, TDƏŞ, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək verirlər.

Sənəddə birgə milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş və birgə fəaliyyətlərin təşviq edilməsi də xüsusi yer tutur. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulmuşdur.

Şuşa Bəyannaməsində Silahlı Qüvvələrimizin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modelləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Buraya, həmçinin hər iki ölkənin Təhlükəsizlik şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclasların keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılması daxil edilmişdir.

Ticarət-iqtisadi münasibətlərə gəlincə, milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi, Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf edilməsinə yönəldilmiş səylərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi, intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialının daha da inkişafı, Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələləri ehtiva edir.

Ticari-iqtisadi münasibətlərdə yer alan Zəngəzur dəhlizinin açılması həm də Azərbaycanın tarixi ərazisi olan qədim Zəngəzur torpağına yenidən qayıdışını da təmin edəcəkdir. Bununla bağlı Prezident İlham Əliyev 2021-ci il may ayının 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində deyib: ***“Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan, təqribən, 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki açılmalıdır və açılacaqdır”.*** Ümumilikdə isə işğaldan azad olunan torpaqlarda inşa olunan hər bir yol və gələcəkdə icrası nəzərdə tutulan mühüm əhəmiyyətə malik hər bir layihə regionun tranzit və logistik əhəmiyyətini artırmağa, bölgənin inkişafını sürətləndirməyə xidmət edəcəkdir.

Tarixi sənəd özündə Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha da inkişaf edilməsi, ümumi problemlərlə bağlı birgə addımların atılması, davamlı həmrəylik göstərilməsi, milli mənafelərin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diaspor fəaliyyətinin əlaqələndirilməsi və qarşılıqlı dəstəyin verilməsini nəzərdə tutmuşdur.

Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin saxtalaşdırılması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhü və sabitliyi təhdid etməsi nəzərə alınmaqla 1915-ci il hadisələri ilə bağlı arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səylərin qətiyyətlə dəstəklənməsinin vacibliyi xüsusilə vurğulanır.

Azərbaycan-Türkiyə Media Platformasının imkanları çərçivəsində iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahəsində əməkdaşlıq gücləndirilmişdir, türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə TDƏŞ və əlaqədar qurumlar çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verilməlidir.

Qeyd edək ki, Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün ən uca zirvəsinə yüksəlib. Xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması ölkələrimizi həmişə bir-birinə yaxın edib, xalqlarımız sevincli, kədərli günlərdə də bir-birinin yanında olub.

Azərbaycan-Türkiyə arasında əlaqələrin yüksək səviyyəsi, ümumilikdə, regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. 44 günlük Vətən müharibəsi zamanı dünya bir daha bunun şahidi oldu. Müharibənin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın yanında olduğunu bildirdi. Bu, gücümüzə güc qatdı, Qarabağ Zəfərində mühüm rol oynadı. Xüsusən Rəcəb Tayyib Ərdoğanın Bakıda, Azadlıq meydanında keçirilən Zəfər paradında Prezident İlham Əliyevlə yan-yana dayanması ölkələrimizin birliyini xalqlarımızın qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi.

Bu gün Qarabağda böyük sürətlə abadlıq və bərpa işləri gedir. Qarabağa yeni nəfəs gəlir və artıq Şuşa şəhəri uzun illərdən sonra yenidən böyük tədbirlərə, festivallara ev sahibliyi edir. Bunun üçün isə, ilk növbədə, regionda sülhün, sabitliyin bərqərar olması ən vacib amildir. Təsadüfi deyildir ki, cənab Prezidentin 2022-ci il 5 yanvar tarixli Sərəncamına əsasən ölkəmizdə 2022-ci il “Şuşa İli” elan edildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 6 dekabr tarixli Sərəncamı ilə Şuşa şəhəri 2023-cü ildə “Türk dünyasının mədəniyyət paytaxtı” elan edildi. “Şuşa İli” ilə bağlı verilən Sərəncamda cənab Prezident deyirdi: ***“Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır. Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır”.***

Göründüyü kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün postmüharibə dövrünün reallıqlarını ortaya qoyur və yeni hədəfləri, inkişaf istiqamətlərini müəyyənləşdirir. Qardaş Türkiyə Respublikası ilə imzalanan Şuşa Bəyannaməsi isə Azərbaycanın daha da qüdrətlənməsi üçün əlverişli imkanlar yaradır.

Şübhəsiz ki, tarixə əsaslanan bu mühüm sənədin imzalanması ilə Azərbaycan ilə Türkiyə arasında siyasi, sosial-iqtisadi əməkdaşlıq özünün yeni mərhələsinə daxil olub. Bu bəyannamə, eyni zamanda 44 günlük müharibədən sonra bölgədə yaranan yeni əməkdaşlıq imkanlarını reallaşdırmaq istiqamətində önəmli addımlar atan iki qardaş ölkənin sülhə, əmin-amanlığa sadiq qaldığını göstərdi. Başqa sözlə, Azərbaycan və Türkiyə bütün potensial gücünü bəyannamədən irəli gələn vəzifələrin icrasına yönəltməklə Cənubi Qafqazı sülh regionuna çevirmək məqsədini qarşıya əsas vəzifə kimi qoydu.

# "Murovdan gələn səda" adlı kitabın təqdimatı keçirilib




Naxçıvan Dövlət Universitetində "Naxçıvan Qaziləri" İctimai Birliyinin təşkilatçılığı ilə şəhid İbrahim Vəlizadənin doğum günü münasibətilə onun həyatına və döyüş yoluna həsr edilmiş "Murovdan gələn səda" kitabının təqdimat mərasimi olub.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Şəhid Ramazan Göydağlının atası Əbülfət Əliyev Vətən müharibəsində və ondan sonrakı hərbi əməliyyatlarda canından keçən Naxçıvanın igid oğullarının qəhrəmanlıqlarından söz açıb.

Şəhid Raqib Hüseynovun anası Rəna Hüseynova bildirib ki, bu gün bir çox qələm sahibi şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi yolunda əlindən gələni edir. Qələmə alınan hər sətir yaddaşlara köçürülür ki, gələcək nəsillər necə qəhrəman oğulların davamçıları olduqlarını bilsinlər.



Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan müzəffər Ordumuz Onun siyasi kursunun davamçısı cənab İlham Əliyevin komandanlığı ilə dövlət-xalq-ordu birliyi nəticəsində 44 gün ərzində işğaldakı torpaqlarımızı azad etdi. Bununla da ərazi bütövlüyümüz təmin olundu. Bu yolda onlarla igid oğlumuz şəhadət şərbəti içdi. Hər bir azərbaycanlı üçün onların xatirəsi əzizdir. Məqalələr, filmlər, kitablar onların qəhrəmanlıq dastanını gələcəyə daşıyacaq. Sonda rektor kitabın müəllifinə uğurlar arzu edib.

Tədbirdə çıxış edən "Şərq qapısı" qəzetinin baş redaktor müavini Məmməd Babayev bildirib: "Ötən aylarda "Şərq qapısı" qəzetinin layihəsi olan "100 ilin qəhrəmanları" kitabının təqdimatı oldu. Biz komanda olaraq daim vətənpərvər ruhda məqalələr, kitablar qələmə almışıq ki, bunların zirvəsi də "100 ilin qəhrəmanları" kitabıdır. Naxçıvan mətbuatından yaxşı tanıdığımız jurnalist, eyni zamanda qəzetimizin əməkdaşı Ramiyə Əkbərovanın itkin şəhid İbrahim Vəlizadə haqqında qələmə aldığı kitab da onlardan biridir.

Jurnalist Ramiyə Əkbərovanın qələmə aldığı bu kitab, kitabda toplanan fotolar İbrahim Vəlizadənin xatirəsinə ehtiram və onun qəhrəmanlığının gələcək nəsillərə ən yaxşı daşıyıcısı olacaq.

Sonra kitabın müəllifi Ramiyə Əkbərova kitabı şəhidin valideynlərinə təqdim edib. Şəhid İbrahim Vəlizadənin atası Səməd Vəlizadə kecirilən tədbirin təşkil edilməsində göstərilən dəstəyə, kitabın ərsəyə gəlməsində çəkilən zəhmətlərinə görə bir sıra şəxsə və "Şərq qapısı" qəzetinin üç əməkdaşına fəxri fərmanları təqdim edib.

Qeyd edək ki, tədbirin bədii hissəsində Naxçıvan Dövlət Universitetinin xor kollektivi və Altai teatrının hazırladığı kompozisiya təqdim olunub.

# Kəngərlidə şəhidin doğum günü qeyd olunub

İyunun 5-i Kəngərli Rayon Mədəniyyət Sarayında Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Qurban İbrahimovun 27-ci doğum günü ilə bağlı tədbir keçirilib. Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndərin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb.



Tədbirdə çıxış edən Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov bildirib ki, Vətən müharibəsi Azərbaycan tarixinin şanlı səhifələrindən biridir. Qəhrəmanlıq dastanı yazan oğullarımız bu yolda müqəddəs şəhidlik zirvəsinə ucalaraq torpaqlarımızı işğaldan azad etdilər. Birinci və İkinci Qarabağ müharibəsi dövründə rayonun 55 qəhrəman oğlu şəhidlik mərtəbəsinə ucalıb. Qurban İbrahimovun doğulduğu Qabıllı kəndi də Vətən torpaqları uğrunda 3 şəhid verib. Şəhid Qurban İbrahimovun komandiri olmuş, İkinci Qarabağ müharibəsi qazisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Təbriz Zeynalov əsgərinin şücaətindən danışıb, onunla bağlı xatirələrini bölüşüb.



Tədbirdə şəhid atası Habil Cəfərov, şəhid anası Tovuz Qasımova igid Vətən oğullarının qəhrəmanlığından bəhs ediblər.

Sonra şəhid Qurban İbrahimovun döyüş yolunu əks etdirən videoçarx izlənilib. Qabıllı, Qarabağlar kənd 1 və 2 nömrəli tam orta məktəblərinin şagirdlərinin ifasında Qurban İbrahimova həsr olunmuş şeirlər səsləndirilib, bədii kompozisiya nümayiş etdirilib.

Sonda şəhidin qardaşı Aftandil İbrahimov tədbirin təşkil olunmasında əməyi olanlara, iştirakçılara təşəkkürünü bildirib, Qurban İbrahimovun timsalında şəhidlərə Allahdan rəhmət diləyib.

# Qarabağın qəlbində bir il: tələbələrin gözündən universitet həyatı

*Böyük ümidlərlə başlayan 2024-2025-ci tədris ili artıq başa çatır. Qarabağ Universiteti il ərzində mənəvi dəyərlərə söykənən, birliyi və yenidənqurmanı təşviq edən fəaliyyəti ilə yadda qaldı. Müharibədən sonra yenidən dirçələn bir bölgədə fəaliyyət göstərən ali təhsil müəssisəsi gənclərə yalnız bilik verməklə kifayətlənməyib, eyni zamanda onların milli vətənpərvərlik ruhunda formalaşdırılması istiqamətində də tədbirlər keçirir. Biz də Qarabağ Universitetinin Naxçıvandan olan tələbələri ilə həmsöhbət olub onların təəssüratlarını öyrəndik:*






Culfa rayonunun Ləkətağ kəndindən olan ***Seymur Məmmədli*** Beynəlxalq ticarət və logistika ixtisası üzrə təhsil alır. Onun sözlərinə görə, ticarət və logistika daim inkişaf edən və yeniliklərlə zəngin bir sahə olduğu üçün bu istiqaməti seçib: "Gələcək planlarımı bu sahə üzrə qurduğum üçün ixtisas seçimimin doğru olduğunu düşünürəm. Universitetdə ilk kursu başa vurmaq mənim üçün həm fərqli, həm də öyrədici bir təcrübə oldu. Hər bir dərs mənə yeni biliklər qazandırdı. Qrup yoldaşlarımla münasibətlərimiz bir il ərzində çox mehriban və dostyana oldu. Dərslərdə və dərsdənkənar vaxtlarda bir-birimizi daim dəstəkləyirdik. Xüsusilə qrup layihələri və imtahanlara hazırlaşma prosesində birgə çalışma həm məsuliyyət hissi aşıladı, həm də dostluqlarımızı möhkəmləndirdi". Seymur əlavə edir ki, tədris prosesi sistemli şəkildə təşkil olunur. Müəllimlər mövzuları sadə və anlaşıqlı şəkildə izah edir, real həyatdan nümunələr gətirərək öyrənmə prosesini daha maraqlı və effektiv hala gətirirlər. O, universitetdə keçirdiyi yaddaqalan anlardan da danışdı: "Xüsusilə Novruz bayramı ilə bağlı keçirilən tədbirdə Keçəl obrazını canlandırmaq mənim üçün xoş və əyləncəli oldu".

Kəngərli rayonunun Qıvraq qəsəbəsindən olan ***Ayla Kərimova*** isə Qarabağ Universitetində Turizm işinin təşkili ixtisası üzrə təhsil alır. O, Qarabağa gəlmək və burada təhsil almağın onun üçün uzun müddət arzuladığı bir məqsəd olduğunu söyləyir: "Qarabağı görmək mənim ən böyük arzularımdan idi və bu arzum gerçəkləşdi. Artıq Qarabağ Universitetinin tələbəsiyəm və burada gözəl xatirələr toplayıram. Universitet həyatımın ən yaddaqalan anlarından biri Prezident cənab İlham Əliyevlə görüşümüz oldu. Onu bu qədər yaxından görmək mənim üçün çox həyəcanlı və unudulmaz bir an idi". Ayla ilk günlərdən etibarən universitet mühitinin şən və pozitiv atmosferdə keçdiyini bildirir: "Universitetin həyatındə toplaşaraq musiqi dinləyir, mahnılar oxuyur və səmimi söhbətlər edirdik. Müəllimlərimizin bizə yaxın və səmimi münasibəti universitetdə ən çox sevdiyim cəhətlərdən biridir. İmtahanlara yaxın günlərdə birgə dərs oxuyur, bir-birimizə dəstək olurduq. Stadion açıq olanda isə voleybol və futbol oyunlarında iştirak etmək və müəllimlərlə tələbələr arasında keçirilən oyunları izləmək bizə böyük zövq verirdi". O həmçinin universitetin təşkil etdiyi səfərlərdən də bəhs edərək deyir ki, Şuşa, Laçın, Suqovuşan və digər bölgələrə təşkil olunan ekskursiyalar çoxlu xatirə və foto ilə yadda qaldı. Gənclər Qarabağ Universitetində əsl tələbəlik həyatı yaşayırlar. Həm sakit və təbiətlə iç-içə bir mühitdədirlər, həm də şəhər səs-küyündən uzaqdırlar. Xankəndinin havası Naxçıvan havasına çox bənzəyir. Xankəndi artıq bizim üçün doğmalaşıb.




Biz də, öz növbəmizdə, Qarabağ Universitetinin növbəti tədris ilinə daha böyük planlar və yeni ümidlərlə hazırlaşan bütün tələbələrinə uğurlar arzu edirik!

**Bülbül QULİYEVA**

# Elvin Həziyev: "Yeni təlimlər bilik və bacarıqların artırılmasına xidmət edir"




"Naxçıvan Təlim Mərkəzi tərəfindən yeni təlimlərə start verilib". Bunu "Şərq qapısı" qəzetinə müsahibəsində mərkəzin Layihələri idarəetmə şöbəsinin mütəxəssisi Elvin Həziyev bildirib. O qeyd edib ki, "Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxs "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində insan kapitalının gücləndirilməsi, dövlət idarəçiliyində kadr potensialının artırılması və gənclərin peşəkar inkişafına töhfə vermək məqsədilə bir sıra təlimlər həyata keçirir: "Mərkəzin təşəbbüsü ilə təşkil olunan bu təlimlər həm gənclərin, həm də müxtəlif sahələrdə çalışan mütəxəssislərin bilik və bacarıqlarını artırmağa yönəlib. Təlimlər dövlət qurumlarında çalışan şəxslər üçün ödənişsiz əsasda təşkil olunur. Bununla yanaşı, artıq ödənişli təlimlərə də start verilib. Yeni təlim proqramları, əsasən, PR və kommunikasiya, SMM, Excel proqramının öyrənilməsi, kibertəhlükəsizlik, data analitika, dövlət satınalmaları və tender prosesi, layihələrin idarə olunması, mühasibat uçotu və kargüzarlıq sahələrini əhatə edəcək. Bu təlimlər üzrə qeydiyyat prosesi növbəti ayın 10-dək davam edəcək. Qeydiyyat başa çatdıqdan sonra qrupların formalaşdırılması nəzərdə tutulur. Qruplar hazır olduqdan sonra təlimlərə start veriləcək. Onu da qeyd edim ki, Təlim Mərkəzi olaraq ehtiyac duyulan sahələr üzrə artıq araşdırmalar aparırıq. Məqsədimiz şəxslərin ehtiyaclarına uyğun təlim proqramları hazırlamaq və onların səriştə və bacarıqlarını inkişaf etdirməkdir".

# Naxçıvan Muxtar Respublikasında fundamental və tətbiqi elm sahələrinin inkişafı

Bu il Azərbaycan Elmlər Akademiyasının yaradılmasından 80 il ötür. Bu elmi qurumun yaradılması ölkəmizdə bütün elm sahələrinin inkişafına böyük təkan vermiş, onların bugünkü səviyyəyə yüksəlməsinə səbəb olmuşdur. Bu baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsi Naxçıvan Muxtar Respublikası da istisna təşkil etmir.

Qeyd olunmalıdır ki, Naxçıvanda müasir elmin əksər sahələrinin yüksək inkişaf yoluna qədəm qoyması XX əsrin 20-ci illərindən başlanmışdır. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsinin yaradılması bu diyarın zəngin təbii sərvətlərinin aşkara çıxarılmasında, tarixinin, elm və mədəni irsinin öyrənilməsində əhəmiyyətli rol oynamışdır. 1945-ci ildə Azərbaycanda Elmlər Akademiyasının yaradılması isə muxtar respublikada da elmin inkişafına töhfələr vermişdir. Araz (Naxçıvan) Kompleks zona təcrübə stansiyasının, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Stansiyasının, AMEA-nın Naxçıvan Regional Elm Mərkəzinin, Elm və Texnika Mərkəzinin, Şamaxı Astrofizika Rəsədxanasının Günəşi Müşahidə Stansiyasının (Batabat rəsədxanasının) yaradılması fundamental elmlərin inkişafını daha da sürətləndirmişdir. Bu baxımdan 1972-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə yaradılmış Naxçıvan Elm Mərkəzində fundamental elmin müxtəlif sahələri üzrə aparılan tədqiqatlar xüsusilə yüksək önəm kəsb edirdi.

Respublikamız müstəqillik əldə etdikdən sonra Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycanın bu bölgəsinin geosiyasi vəziyyətini nəzərə alaraq 2002-ci il avqust ayının 7-də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında Sərəncam imzaladı. Həmin il avqust ayının 12-də bu münasibətlə keçirilən müşavirədə sədrlik edən Ulu Öndər demişdir: ***"Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də, düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var".***

Adıçəkilən Sərəncama müvafiq olaraq AMEA Naxçıvan Bölməsində 6 elmi-tədqiqat bölməsi – Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu; İncəsənət, Dil və Ədəbiyyat İnstitutu; Təbii Ehtiyatlar İnstitutu; Bioresurslar İnstitutu; Batabat Astrofizika Rəsədxanası və Əlyazmalar Fondu yaradılmışdır.

Məlumdur ki, elmin inkişafı təkcə yuxarıda göstərilən elm ocaqlarının açılması ilə deyil, həm də orada çalışacaq yüksəkixtisaslı kadrların hazırlıq səviyyəsindən, onların elmi fəaliyyətindən də asılıdır. Bu amili nəzərə alaraq 1998-ci ildən Naxçıvan



**Tofiq ƏLİYEV**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Təbii Ehtiyatlar İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü, professor*

Dövlət Universitetində dörd, 2006-cı ildən isə AMEA Naxçıvan Bölməsində üç ixtisas üzrə Dissertasiya şuraları yaradılmış və bu da yüksəkixtisaslı elmi kadrların, o cümlədən fundamental elmlər sahəsində çalışan kadrların hazırlanması işinə öz müsbət təsirini göstərmiş və bu gün də göstərir.

Qeyd olunmalıdır ki, ötən dövr ərzində görülən işlər öz müsbət bəhrəsini vermişdir. Müxtəlif dövrlərdə həyata keçirilən, xüsusilə də 2001-ci ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradıldıqdan sonra daha da genişləndirilən geoloji-kəşfiyyat işləri nəticəsində muxtar respublikanın ərazisində mövcud olan çoxsaylı faydalı qazıntılar aşkara çıxarılmış, onlar haqda vacib parametrlər təyin edilmişdir.

Muxtar respublikamızın faydalı qazıntılarını şərti olaraq aşağıdakı qruplara bölmək olar. Metallara malik faydalı qazıntılar (metal filizləri); qeyri-filiz faydalı qazıntılar; bəzək daşları; tikinti materialları.

Kimyaçıların araşdırmaları muxtar respublikanın təbii xammal ehtiyatları əsasında qeyri-üzvi və bioloji-aktiv maddələrin və preparatların alınması üsullarının işlənib hazırlanmasına yönəldilmişdir. Darıdağ termal sularının (DTS) kompleks tədqiqinin prinsipial texnoloji sisteminin təklif edilməsi, bu sulardan bor-arsen konsentratının, nəticədə isə yüksək təmizliyə malik arsen 3-sulfidin sintezi belə işlərdəndir. Karbon qazının alınması ilə bağlı mərkəzin mütəxəssisləri muxtar respublikanın istehsal sahələrinin yerli xammal əsasında işləməsi üçün də axtarışlar aparmışlar. Bu araşdırmalar respublika dövlət mükafatına layiq görülmüşdür.

DTS-nin araşdırılması ilə bağlı uzun illərdən bəri aparılan tədqiqatlar xüsusilə yüksək aktuallıq kəsb edir. DTS qrupu MDB-də ən yüksək debitli mineral su mənbələridir. Mənbələr Culfa şəhərindən 9 kilometr şimal-şərqdə, dəniz səviyyəsindən 900 metr yüksəklikdə, Şorsu çay dərəsində bir-birindən 0,5-2 kilometr məsafədə yerləşir. Dövlət Ehtiyatlar Komitəsi tərəfindən Darıdağ mineral sularının istismar ehtiyatı B qrupu üzrə 4,5 min $m^3$/sutka olduğu təsdiq edilmişdir. DTS-nin dünya arsenli suları içərisində öz müalicəvi əhəmiyyətinə görə də xüsusi yeri var. Hazırda xüsusi şəraitdə suyun quru qalığı alınaraq satışa verilir.

Yuxarıdakı məlumatdan da görünür ki, DTS-nin tərkibində asan emal edilən və muxtar respublikanın böyük tələbatı olan komponentlərdən biri də karbon qazıdır. 1980-ci ildə Darıdağ ərazisində maye karbon qazı istehsal edən sex yaradılmışdır. Sonrakı dövrlərdə sex "Darıdağ" Açıq Səhmdar Cəmiyyətinə çevrilmiş, 2008-ci il dekabr ayından isə "Karbon Qazı Zavodu" ASC kimi fəaliyyət göstərir.

Kimyaçıların mühüm işlərindən biri də Gümüşlü polimetal (sink-qurğuşun) filizindən metal qurğuşunun alınması texnologiyasının işlənib hazırlanması və Gümüşlü flotasiya fabrikinin tullantısından 65-70 faizli barium sulfat konsentratı alınması və onun fabrik miqyasında sınaqdan keçirilməsi olmuşdur.

Parağaçay molibdenit yatağının işlənməsi də kimyaçılarımızın xidmətlərindəndir. Molibdenit filizi flotasiya üsulu ilə zənginləşdirilmiş, iki təmizləmədən sonra 18-20 faizli molibdenit konsentratı, konsentratın müxtəlif üsullarla işlənməsindən ammonium molibdat, molibden (VI) oksid və sulfid, onların əsasında isə molibdenin bir sıra üçlü birləşmələri alınmışdır.

Darıdağ antimonit yatağı filizinin müxtəlif həllediciIərlə həll edilərək məhlula keçirilməsi və bu məhluldan sürmənin müxtəlif üçlü halogenidlərinin və metal sürmənin alınması metodları da kimyaçılarımız tərəfindən işlənmişdir.

Fizikaçılarımız tərəfindən muxtar respublika ərazisində alternativ (bərpa olunan) enerji mənbələrinin öyrənilməsi, yarımkeçirici nazik təbəqələr əsasında yüksək effektli fotovoltaik materialların və çeviricilərin alınması, alınmış strukturların fotoelektrik və optik xassələrinin araşdırılması sahəsində tədqiqatlar aparılmış və bu gün də tədqiqatlar davam etdilir.

Bu dövrdə alimlərimizin fundamental elmlərlə bağlı 40-dan artıq monoqrafiya və kitabları nəşr edilmiş, 20-dən çox patent almışlar.

AMEA-nın yaradılmasından sonra elmin digər sahələri kimi astronomiyanın da Azərbaycanda geniş vüsət aldığı bir dövr olmuş, 1959-cu ilin noyabr ayında Şamaxı Astrofizika Rəsədxanasının yaradılması haqqında müvafiq qərar qəbul edilmişdir.

XX əsrin 60-cı illərinin sonunda, Şamaxı Astrofizika Rəsədxanasında astronomik müşahidələrin artıq tam qaydaya düşdüyü bir vaxtda rəsədxananın daha yüksək bir nöqtədə yerləşə bilən müşahidə stansiyasının yaradılması zərurəti ortaya çıxmışdır. Bu yer astronomik iqliminə görə Şamaxı Astrofizika Rəsədxanasından da üstün olmalı idi. Bunun üçün dəfələrlə bir sıra zonalar, o cümlədən muxtar respublikanın da bəzi məntəqələri nəzərdən keçirilmişdir. Nəhayət, yekunda müşahidə stansiyasının Şahbuz rayonunun Batabat ərazisində qurulması qərara alınmış və Azərbaycan SSR EA Rəyasət Heyətinin 1971-ci il mart ayının 25-də qəbul etdiyi qərar əsasında Şamaxı Astrofizika Rəsədxanasının Batabat bölməsi yaradılmışdır.

Az bir müddət ərzində dəniz səviyyəsindən, təqribən, 2050 metr hündürlükdə yerləşən Batabat stansiyasında Kude sistemində işləyən 200 millimetrlik bir teleskop qurulmuş, 1974-cü ildə Batabat bölməsində ilk böyük teleskop – günəş koronoqrafı qurulmuş, həmin teleskopda günəş fizikası sahəsində aparılan tədqiqatlar çərçivəsində müşahidələrə başlanmış və çox maraqlı elmi nəticələr alınmışdır.

1980-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvana səfəri çərçivəsində Batabat bölməsində olması bölmənin həyatında mühüm hadisə idi. Bölmənin fəaliyyəti ilə yaxından tanış olan Ümummilli Lider aidiyyəti qurumlara mühüm tapşırıqlar vermişdir. 1990-cı ilin yazında Batabat bölməsində "Seyss-600" teleskopu quraşdırılmışdır. Bu, bölmənin həyatında olduqca əlamətdar bir hadisə idi. Adıçəkilən teleskopun qurulması ilə Batabat bölməsində elmi-tədqiqat işlərinin daha da genişləndirilməsi nəzərdə tutulurdu. Bununla belə təəssüflə qeyd edilməlidir ki, 1988-ci ildən başlayaraq Naxçıvanın mənfur ermənilər tərəfindən blokada vəziyyətinə salınması və bölmənin Ermənistanla həmsərhəd ərazidə – atəş xətti zonasında yerləşməsi bu elmi idarənin fəaliyyətinə öz təsirini göstərdi. 1991-ci ildən 2000-ci ilə qədər bölmədə nəinki elmi-tədqiqat işləri ilə məşğul olmaq, bəzən, hətta əraziyə nəzarət etmək belə mümkün olmamışdır.



Vurğulamaq istərdim ki, hələ keçən əsrin 20-ci illərində Leninqrad astronomları Azərbaycan ərazisində astronomik stansiya qurmaq ideyası üzərində işləyirdilər. Bu ideyanı həyata keçirmək onlara yalnız 60-cı illərin sonunda, Ulu Öndərin ölkəmizə birinci hakimiyyəti dövründə müyəssər oldu. 1969-cu ildən başlayaraq Ordubad rayonunun Ağdərə məntəqəsində Pulkovo Rəsədxanasının daimi ekspedisiyası fəaliyyətə başladı. Artıq 80-ci illərin əvvəllərində Ağdərə Astronomiya Stansiyasında iki teleskop – astroqraf "AFR-1" və uzunfokuslu meniskli "Ay-Planet" teleskopu fəaliyyət göstərirdi. 80-ci illərdə Leninqrad astronomları AAS-də qiymətli mövqe müşahidələri aparmışlar. Bunların içərisində Sovet-Amerika birgə "VEQA" proqramı çərçivəsində Halley kometinin yerüstü müşahidələri xüsusi yer tuturdu.

Təəssüflər olsun ki, 80-ci illərin sonlarında ermənilər tərəfindən baş verən məlum dağıdıcı proseslər AAS-nin fəaliyyətinə də son dərəcə mənfi təsir göstərdi. 1991-ci ildə leninqradlı astronomlar stansiyanı tərk etdilər. AAS 1997-ci ilədək faktiki olaraq nəzarətsiz qaldı. Azərbaycan MEA Rəyasət Heyətinin 5 noyabr 1997-ci il tarixli Qərarı ilə AAS Şamaxı Astrofizika Rəsədxanasına birləşdirildi. Batabat Astrofizika Rəsədxanası isə AMEA-nın Naxçıvan Bölməsinin yaradılmasından sonra – 2003-cü ilin yanvar ayından yenidən faktiki fəaliyyətə başlamışdır.

Müstəqillik illərində Azərbaycan Respublikasında, o cümlədən muxtar respublikamızda elm və təhsilə göstərilən yüksək dövlət qayğısı Batabat Astrofizika Rəsədxanasını da əhatə etmişdir. Məhz bu qayğı nəticəsində 2004-cü ildə Naxçıvan şəhərində, 2006-2007-ci illər ərzində ŞAR-ın Batabat bölməsi yerləşdiyi ərazidə tam şəkildə müasir tələblərə cavab verən inzibati binalar tikilərək əməkdaşların istifadəsinə verilmişdir. "Seyss-600" teleskopu Krım Astrofizika Rəsədxanasına göndərilərək müasir səviyyədə modernləşdirilmiş və 2007-ci ilin sentyabr ayında Batabatda quraşdırılmışdır.

Bu gün ARETN Batabat Astrofizika Rəsədxanası Naxçıvan şəhərindəki inzibati binadan, Şahbuz rayonu ərazisindəki Batabat stansiyasından və Ordubad rayonu ərazisindəki Ağdərə stansiyasından ibarət bir struktur kimi fəaliyyət göstərir.

Gəlinən nəticə odur ki, AMEA-nın, xüsusilə də onun Naxçıvan Bölməsinin yaradılması muxtar respublikada digər elmlərlə yanaşı, fundamental və tətbiqi elmlər sahəsində də aparılan işlərin vahid mərkəzdən idarə olunmasına, onların daha rasional əlaqələndirilməsinə əlverişli şərait yaranmışdır ki, bu da, öz növbəsində, həmin elmlərin yüksək inkişaf səviyyəsinə qalxmasına səbəb olmuşdur. Respublikamızın müstəqillik əldə etməsindən sonra elm və təhsilə yüksək dövlət qayğısının göstərilməsi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin bu sahədə həyata keçirdiyi işlər qədim Naxçıvan diyarının möhtəşəm inkişaf səviyyəsinə yüksəlməsinə səbəb olumuşdur.

# Bu kəndin öz hekayəsi var...



*Şəhərdən bizi günəşli hava yola salır bu kəndə: təsəvvürümüzdə bizi dağların arxasından yavaşca boylanan günəşin qarşılayacağı canlanır. Səhərin erkən saatlarında uzaqdan havanın bir qədər tutqun olduğu görünür, günəş hələ də dağların arxasında gizlənib. Bizi dumanlı yollar, sükut içində uyuyan dağlar, çiskinli hava və ara-sıra uzaqdan eşidilən quşların səsi qarşılayır.*



Dağların sinəsinə sığınmış, özünə burada yer etmiş bu kiçik kənddə sanki həyat başqa ritmdə davam edir, zaman başqa cür işləyir. Sığındığı dağın sinəsi uzaqdan insanı cəlb edir, böyük bir qaya üzərində tikildiyi elə ilk baxışdan görünür. Burada həyatın öz ritmi var: kənd sakinləri illərdir, təbiətin onlara bəxş etdiyi bu gözəl şəraitə uyğunlaşaraq özlərinə məxsus həyat tərzi sürürlər. Kəndin dar və daşlı küçələri, evlərin qayanın təbii formalarına uyğun tikilməsi, buranı başqa kəndlərdən fərqləndirir. Qayanın hər tərəfi dərə olan bu kəndin adı olan çayı yoxdur... Naxçıvanın ən ucqar kiçik kəndlərindən biri – Teyvaz: insanların sadə və səmimi yaşadığı, təbiətin isə öz ilkinliyini qoruyub saxladığı bir məkan və ya qayanın üzərində gizlənmiş kənd.

Kəndin əksər evləri çaydaşından inşa edilib, bəlkə, əsrlərin evləridir: unikal memarlıq və təbiətin möcüzəsini bir yerdə görmək mümkündür bu evlərə baxdıqda. Bizi təbiətin ən saf, ən təmiz halı – yağışlı hava ilə qarşılayır kənd. Yağışın sakit damcıları kəndin üzərinə yavaş-yavaş süzülür, hər tərəfi yaşıl təbəssümə bürüyür. Torpaqdan yüksələn nəmlik, təmiz hava və o əvəzedilməz qoxu nəfəsimizi açır, sanki ruhumuzu yeniləyir. Yağışın altında addımlayarkən kəndin dərin səssizliyi insanın iç dünyasına səyahət kimi gəlir. Burada hər damla yağış bir hekayə danışır, hər nəfəs təbiətin qəlbinə toxunur. Əslində, bu kəndin bir hekayəsi var, onu deyib gəlmişik...

Teyvazın girişində yaşlı bir kənd sakini ilə rastlaşırıq – at belində sanki dağlara “meydan oxuyurmuş” kimi atını sürür. Bizi gördükdə at belindən yerə enir, hal-əhval tuturuq. Kəndin ən qoca sakini olduğunu deyir Rəşid Mustafayev: “Bu kənddə həyat elə yüz il əvvəl necə idisə, indi də o cür davam edir. Burada hər səhər kənd sakinləri mal-heyvana çıxar, torpağını əkib-becərər”. Rəşid kişi deyir ki, burada qonşular, kənd sakinləri bir-birinin halını soruşmadan keçməzlər, hamının xeyri-şəri bir olar. Kənd sakinləri, əsasən, kənd təsərrüfatı və heyvandarlıqla məşğuldurlar. Onlar üçün belə bir qayanın üzərində yerləşən, sanki üzük qaşını xatırladan kənd gözəldir. Səbəbini isə kənd ağsaqqalı bu cür izah edir: “Qayanın üzərində olmaq bizi həm qoruyur, həm də bizə ilham verir”. Səbəbini soruşduqda deyir ki, bu kəndin hər iki tərəfində dərə var və buranın adı olan bir çayı yoxdur. Qaya üzərində yerləşən kəndi heç vaxt sel suları yumaz, burada zəlzələ olmaz və külək əsərkən heç bir ziyan dəyməz. Əksinə, dağların qoynundan boylanan günəş kəndin hər bir evinə işıq saçar.

Kəndin ətrafında ucsuz-bucaqsız görünən dağlar, buz kimi bulaqlar, sıldırım qayalarla yanaşı, həm də bir hekayəsi var – yağışla bağlı. Sən demə, burada güclü yağışların yağması üçün dua edirmişlər, Yağış piri belə var. Deyəsən, kənd sakinləri bu aylarda daha çox dua ediblər. Belə bir yağışın yağması üçün Teyvaz kəndinin sakinləri ta qədimdən kəndin yaxınlığında olan dağa gedirmişlər. Xüsusilə bu adət ilin quraq aylarında həyata keçirilirmiş. Belə ki, yağış yağması üçün sakinlər həmin pirə gedərək yağış duası edir, qurbanlar kəsirmiş. Kənd sakini Səyyad Hüseynov deyir ki, bu ənənə hələ də davam edir: “Bax, o dağın başındakı daşa”, – deyə əli ilə uzaqda olan dağı göstərir – ora Yağış piridir. Böyüklərimizdən eşitdiyimizə görə, o zamanlar kəndin sakinləri uzun müddət davam edən quraqlıqdan sonra bir araya gələrək yağışın yağması üçün dua mərasimi keçirirmişlər. Bu qədim adət əsrlərdir, kənddə yaşadılır. Əslində, bu həm də təbiətin hüzurunda birlik, ümid və inamın simvolu kimi də xarakterizə olunur. Sakinlər üçün yağış, sadəcə, təbiətin bir hadisəsi deyil. O, həyat deməkdir, bolluq və ümid gətirir. Bu dua ilə insanlar həm təbiətə, həm də bir-birinə güvənirlər.

Kənd sakinləri deyir ki, bu mərasimdən sonra bəzən dərhal yağış yağdığı müşahidə olunub, bəzən isə inam və ümid hissi insanları quraqlığın çətinliyinə qarşı dayanıqlı edir. Bu mərasim həm bir ənənə, həm də quraqlıq dövründə insanların bir-birinə dayaq olması deməkdir.

Yağışlı havanın yaratdığı sakitlik və təbiətin səmimiliyi kəndə gələn hər kəsin qəlbində xüsusi yer tutur. Burada şəhərin gurultusundan uzaq, sadə və təbii həyat davam edir. Dağ kəndində həyat çətin, amma dəyərlərlə dolu olur. Burada insanlar təbiətə uyğun yaşayır, köhnə adət-ənənələrini qoruyur, bəzən Tanrının bəxş etdiyi təbiət gözəlliklərinə özlərini “fəda” belə edirlər. Kəndin gözəlliyi isə yalnız onun təbiətində deyil, insanlarında da gizlidir. Teyvaz kəndində yaşayan sakinlər üçün müqəddəs hesab etdikləri bəzi dəyərlər var ki, onlar üçün bu gizli deyil. Səyyad Hüseynov söhbət əsnasında dağlarda bitən armud ağaclarını göstərərək: “Bu ağaclar hər bir teyvazlı üçün müqəddəsdir”, – deyir. Səbəbinə isə belə aydınlıq gətirir: “Bir vaxtlar kənddə təbii qaz olmadığı üçün insanlar qış aylarında odun yandırırdılar. Lakin heç vaxt o armud ağaclarına dəyilmədi, kəsilmədi, doğranmadı. Eyni zamanda çətin vaxtlarda armud ağacının meyvəsindən istifadə edilib. Buna görə o ağac bizlər üçün müqəddəsdir”.

Kənd həyatı zahirən sakit və təmiz görünə bilər, amma onun arxasında bitib-tükənməyən zəhmət, əzmkarlıq, ən əsası, təbiətə bağlılıq durur. Qonaqpərvərliyi, səmimiyyəti ilə seçilən Teyvaz kəndində həyat sakit, amma mənalı axır. Burada zaman sanki yavaşlayır, təbiətin nəbzi ilə birgə döyünür. Bu kənd təkcə Naxçıvanın bir coğrafi məkanı deyil, bir həyat fəlsəfəsidir: təmiz təbiəti, saf insanları və sakitliyi ilə adamın ruhunu oxşayır. Buranın gözəlliyi yalnız gözlə görünən mənzərələrdə deyil, burada yaşayan insanların təmiz qəlbindədir. Bura insanının həyatı həm də dəyərli bir həyat tərzidir. Şəhər adamı üçün bir gün bu kənddə qonaq olmaq xoş olsa da, kəndli üçün bu həyat hər günün gerçəkliyidir – quşların səsi ilə açılan səhərlər, axşamlar isə qürubun narıncı işığında yeni nağıllar danışan kənd.

✍ **Ceyhun MƏMMƏDOV**



## Həsrətimin adı Zəngəzur, arzularımın məkanı isə Qarabağ



✍ **Bülbül RÖVŞƏNQIZI**

Harada yaşasam da, harada olsam da, qəlbimdə daim Naxçıvanın sabahı işıqlanır. Mən bu qədim diyarda dünyaya göz açmışam. Bu müqəddəs torpaq yalnız bir Vətən deyil, həm də tarixə şahidlik etmiş qədim bir mədəniyyət beşiyidir. Burada hər daş bir dastan, hər bulaq bir bayatıdır. Naxçıvan Nuh Peyğəmbərin izlərini daşıyan, Əshabi-kəhfin sükutunu qoruyan, Batabatın aynası ilə danışan bir müqəddəs məkandır. Bu torpaq mənim təkcə doğma yurdum deyil, həm də qürur mənbəyimdir.

Naxçıvanda böyümək yalnız bir yerdə yaşamaq deyil, həm də mənəvi olaraq yetkinləşməkdir. Burada hər bir gəncin gözündə Ulu Öndər Heydər Əliyev zirvəsi kimi ucalmaq arzusu var. Bu, bir amal, bir idealdır. Mənim də bu idealın iziylə addımlayan qəlbimdə bir arzu var idi – jurnalist olmaq. Vətənimin hər bölgəsini gəzmək, onun gözəlliklərini, insanlarını, tarixini tanımaq və tanıtmaq istəyirdim. İçimdəki bir səs daim deyirdi: “Sən bu amallar üçün doğulmusan”.

İllər keçdi. Bu gün 24 yaşım var və artıq Naxçıvan mətbuatında gənc bir qələm sahibi kimi fəaliyyət göstərirəm. Lakin illərdir, içimdə gizlənən bir həsrət var – adı olmayan, izahı çətin bir həsrət. O həsrət ki milyonlarla azərbaycanlının dilində bir ümidsizliyə yox, ümidə çevrilmiş diləkdir: “Zəngəzur yolu ilə Vətənə qovuşum”.

Mən hələ də Qarabağ torpağına birbaşa Naxçıvandan ayaq basa bilməmişəm. Hər dəfə televiziya ekranında Cıdır düzünü, Xudafərin körpüsünü, Laçın dağlarını görəndə içimdə qəribə bir sızıltı yaranır. Düşünürəm: “Kaş mən də o torpaqlardan keçə biləydim, o havanı uda, şəhid məzarlarının önündə baş əyəydim”.

Lakin əminəm ki, o yollar bir gün açılacaq. O yol ki Zəngəzurdan keçib Qarabağa aparacaq. O zaman mən bu həsrətə son qoyacağam. O torpaqlara qürurla ayaq basacağam. Oradan ilk reportajımı hazırlayacağam, ilk müsahibəmi alacağam, ilk fotolarımı çəkəcəyəm. Dəftərçəmə burada yaşadığım təəssüratlarımı yazacağam.

Bu, sadəcə, bir peşə arzusu deyil, bu, bir Vətən sevdasıdır. Bu, Naxçıvanda doğulub Azərbaycanın hər daşına, hər qarışına könül verən bir gəncin səmimi istəkləridir. Mən əminəm ki, bu istək bir gün reallaşacaq. Qarabağın yenidən dirçəlişini göstərmək mənim həyatımın ən böyük missiyası olacaq.

Bu gün Naxçıvanda oturub bu sətirləri yazarkən bilmirəm o yola nə zaman çıxacağam. Amma bir şeyi dəqiq bilirəm: o yol açılacaq! Və mən o yolun sərnişini olacağam. O zaman həm bir jurnalist, həm də bir vətəndaş kimi borcumu yerinə yetirəcəyəm. Mənim həsrətimin adında Zəngəzur yolları uzanır, arzularımda isə Qarabağ torpağı yaşayır.

Vətəndən Vətən torpağına qovuşmaq arzusu ilə…

## DÜNYA xəbərləri

### Dubayda dünyanın ən hündür metro stansiyası inşa ediləcək

Dubayda Mavi xəttin genişləndirilməsi layihəsi çərçivəsində dünyanın ən hündür metro stansiyası inşa ediləcək. Şəhərin sürətlə inkişaf edən "Dubai Creek Harbour" rayonunda yerləşəcək stansiyanın adı "Emaar Properties Station" olacaq və hündürlüyü 74 metrə çatacaq.

Stansiyanın layihəsi ABŞ-nin "Skidmore, Owings & Merrill" memarlıq şirkətinə məxsusdur. Bu şirkət "Burc Xəlifə" layihəsinin müəllifi kimi tanınır. "Emaar Properties" stansiyasının layihəsi "Kəşişən qapılar" konsepsiyasından ilhamlanıb və 11 min kvadratmetr sahəni əhatə edərək gündə 160 min nəfərə qədər sərnişinə xidmət edəcək.

Mavi xətti şəhərin nəqliyyat infrastrukturunu yaxşılaşdırmaq məqsədilə tikiləcək və hazırda fəaliyyət göstərən Qırmızı və Yaşıl xətlərə üç stansiya ilə birləşəcək. 2029-cu ildə istifadəyə verildikdən sonra bu xətt Akademik şəhər, Al-Varku, Dubayın Silikon Oazisi, Beynəlxalq şəhər və Mirdif kimi əsas yaşayış və iş mərkəzlərinə gediş imkanı yaradacaq.

### Avropada ilk dəfə iki qan xəstəsi qadına gen terapiyası tətbiq edilib

İtaliya və Avropada ilk dəfə olaraq iki qan xəstəsi qadına gen terapiyası tətbiq edilib. Milan şəhərinin cənubunda Paviadakı San Matteo Poliklinikasında müalicə olunan 20 yaşlı qadınlar nadir irsi qan xəstəlikləri üçün qabaqcıl gen terapiyası alıblar. Müvafiq olaraq β-talassemiya əsas və ağır oraq hüceyrəli anemiyadan təsirlənən iki xəstəyə Avropada ilk dəfə klinik sınaqlardan kənar qabaqcıl gen terapiyası olan "Casgevy" tətbiq edilib.

İnnovativ müalicə hemoqlobinopatiyaların, ciddi və əlillik yaradan genetik xəstəliklərin müalicəsində dönüş nöqtəsi hesab olunur. Yeni "Casgevy" terapiyası otoloji hematopoetik kök hüceyrələrin "ex vivo" genetik redaktəsi innovativ yanaşması ilə işləyərək dölün hemoqlobinin istehsalını yenidən aktivləşdirir və genetik qüsuru kompensasiya edir.

### Görmə qabiliyyəti zəif olan insanlar üçün süni intellekt əsaslı naviqator hazırlanıb

Görmə qabiliyyəti məhdud olan şəxslərin ətraf mühitdə rahat hərəkət edə bilməsi üçün maneələri tanıyan süni intellekt əsaslı naviqator Novosibirsk Dövlət Texniki Universitetində hazırlanıb.

"İstifadəçi bizim hazırladığımız tətbiqi yükləyir, kameranı işə salır və cihazı sinəsinə bərkidir. Bundan sonra xüsusi təlim keçmiş neyron şəbəkə işə başlayır. Süni intellekt video axınından kadrları təhlil edərək ətraf mühiti və potensial təhlükəli obyektlərə olan məsafəni müəyyənləşdirir və istifadəçini səs vasitəsilə xəbərdar edir", – deyə layihənin müəlliflərindən biri Yeqor Avdeyev bildirib.

Obyektləri tanımaq üçün tərtibatçılar əl ilə işarələnmiş məlumatlar üzərində öyrədilən konvolyusional neyron şəbəkə modelindən istifadə edirlər. Süni intellekt, təxminən, beş metr məsafədəki maneələr barədə xəbərdarlıq edir ki, bu da istifadəçini məlumatla yükləməmək üçün nəzərdə tutulub.



## "Şərq qapısı" əsl region mətbuatıdır

Onlar Naxçıvanın – "Şərq qapısı" qəzetinin ağıllı, bacarıqlı, zəhmətkeş, gülərüz qızlarıdır. Amma kollektiv yalnız bu qədər deyil, onların sayı daha çoxdur.

Çoxları düşünür ki, qəzet dövrü artıq bitib. Amma burada qəzet hələ də yaşayır. Bu kollektiv qəzeti o qədər sevgi və həvəslə hazırlayır ki, insan heyran qalır. Naxçıvanda jurnalistika, qəzetçilik əsl fədakarlıq və sevgi işidir. Minimum imkanlarla maksimum nəticələr göstərirlər.

Sara xanım əla bir menecerdir. O, kollektivi bir yumruq kimi birləşdirib idarə edir. Nizam-intizam, sistemlilik hər bir detalda hiss olunur. Hər hansı bir tədbirdən xəbər hazırlamaq üçün göstəriş gözləmirlər, bilirlər ki, iş vaxtında görülməlidir. Heç kim "Mənə deyən olmadı" bəhanəsi ilə məsuliyyətdən yayınmır.

Əksəriyyəti Naxçıvanda jurnalistika və digər sahələr üzrə təhsil alıblar. Az maaşla işləsələr də, son dərəcə fəal, işgüzar və canıyanan insanlardır.

Qəzetin bir neçə nömrəsini vərəqləmək imkanım oldu. Naxçıvanın rəsmi gündəmi ilə yanaşı, hər bir sakinin həyatına toxunan yazılar, xalq adamlarının obrazları – çoban, tarlada çalışan insan və sair – qəzetin səhifələrində öz əksini tapır. Üstəlik, bu yazılar bol illüstrasiyalarla təqdim olunur. İnsanlara nə lazımdır? Onların əməyini dəyərləndirmək. "Şərq qapısı" öz səhifələrində sadə naxçıvanlıların həyatına, məşğuliyyətinə, dərd-sərinə yer ayırır – əsl region mətbuatı kimi.

Qəzetin iki əməkdaşı ilə daha yaxından ünsiyyət qurmaq imkanım oldu – Aidə və Bülbül. Bülbül gözəl, şirin bir mələkdir. Həmişə gülümsəyir, daim qaçır, hər zaman kömək etməyə hazırdır. Aidə isə jurnalistliklə yanaşı, rəssamlıq və tətbiqi incəsənətlə məşğuldur. Əlləri qızıldır. Qismət olsa, onun fərdi sərgisinə də gedərik.

Adını ayrıca çəkmədiyim "Şərq qapısı" xanımlarının hər biri ürəkdir. Əshabi-Kəhfdə çay içmək üçün gecəni yatmayıb şirin kökələr bişirmişdilər. Bizə elə bir qonaqpərvərlik göstərdilər ki, onların xəcalətindən necə çıxacağımızı bilmirik.

Hamınıza sevgi və uğurlar, əziz həmkarlar!

**Səadət MƏMMƏDOVA**
***Azərbaycan Mətbuat Şurasının sədr müavini***

## "Real Vətən" layihəsi çərçivəsində qədim diyar Naxçıvan lentə alınır



Azərbaycan Dövlət Turizm Agentliyi və "Real TV"nin birgə təşəbbüsü ilə ulu diyar Naxçıvanın ecazkar təbiətini, tarixi abidələrini, turizm potensialını kəşf etmək və mövcud yerli turizm imkanlarını ictimaiyyətə çatdırmaq məqsədilə "Real Vətən" layihəsinin çəkilişlərinə start verilib.

"Real TV"də yayımlanan məlumatlandırıcı və maariflәndirici teleləyihənin növbəti buraxılışı Naxçıvana həsr olunub. Qeyd edək ki, "Real Vətən" layihəsi 2019-cu ildən günümüzə qədər Azərbaycanın 22 bölgəsini lentə alaraq həmin bölgələrin turizm imkanlarını tamaşaçılara nümayiş etdirib.

Layihənin müəllifi və rejissoru Səyavuş Hüseynli ilə quruluşçu operatoru Zaur Mehman çəkilişləri həyata keçirmək üçün qədim Naxçıvanımızın qonaqları olublar. Səyavuş Hüseynli ilə görüşüb qədim diyarımızla bağlı təəssüratlarını öyrəndik.

"Naxçıvana ilk gəlişimdə şəhəri tam şəkildə lentə aldım. Buradakı türbələri, abidələri, şəhər həyatını, eləcə də Pəzməri şəlaləsini, Əshabi-kəhfi və Duzdağı çəkdim və bütün bunlardan maraqlı bir material hazırladım. Bu isə bizim ikinci səfərimizdir", – deyən rejissor "Real Vətən" komandası olaraq bu dəfə Naxçıvandan iki film hazırlayacağını bildirdi. Layihəni hazırlamaqda əsas məqsədin turistik potensialı daha yüksək olan və ecazkar təbiətə, möhtəşəm tarixi abidələrə malik bu regionu daha yaxından tanıtmaq olduğunu qeyd etdi.

"Bu səfər çərçivəsində Ordubadda oldum. Açığı, Ordubad mənə sanki bir Şərq nağılını xatırlatdı. Onun qədim və özünəməxsus məhəllələri könlümü fəth etdi. Ordubadda olarkən Qeysəriyyə bazarında amerikalı bir turist xanımla qarşılaşdım. Hətta ondan Naxçıvanla bağlı müsahibə də götürdüm. Xanım böyük heyranlıqla Naxçıvandan danışırdı.

Uzun illərdir, arzulayırdım ki, Haçadağa qalxım. Keçən səfər reallaşdıra bilmədim, amma bu dəfə, nəhayət ki, bu arzumu gerçəkləşdirdim. Eyni zamanda Ordubadda yerləşən Göygölə də getdim və sözün əsl mənasında, möhtəşəm mənzərə qarşısında heyrətə düşdüm. Təbiət mənzərəsi məni valeh etdi. Düzü, yolda bir qədər çətinliyimiz oldu, çünki qar uçqunları vardı. Birindən keçə bilsək də, digərini keçə bilmədik və piyada getməli olduq. Amma sonda qarşılaşdığımız mənzərə sözlə ifadə olunmazdır. Eyni anda dörd fəsli bir arada gördüm – bir tərəfdə çiçəklər açmışdı, o biri tərəfdə isə hələ də qar və qış hökm sürürdü. Qarşıda Qapıcıq dağını gördüm, sanki başında buludlar və duman rəqs edirdi", – deyə Səyavuş Hüseynli qeyd etdi.

Gülümsəyərək bu səfərində daha çox Ordubadda çəkilişlər apardığını etiraf edən rejissor, eyni zamanda Culfada Gülüstan türbəsini ziyarət etdiyini də bildirdi. Ən çox görmək istədiyi yerlərdən birinin Qarabağlar türbəsi olduğunu deyən Səyavuş Hüseynli bu möhtəşəm tarixi abidənin onu valeh etdiyini xüsusilə vurğuladı.

"Ümumiyyətlə, Naxçıvanın bütün abidələri çox gözəldir, havasına isə söz ola bilməz. Burada olduğum müddət ərzində özümü ruhən də, fiziki olaraq da çox yaxşı hiss etdim", – deyən rejissor son olaraq onu qeyd etdi ki, Naxçıvan, doğrudan da, gəlib görməyə dəyər bir yerdir. Biz gəldik, gördük və buradan bol-bol xoş təəssüratlarla ayrılırıq.

**Cavanşir BAĞIRLI**

## Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Naxçıvan Dövlət Universiteti

Əlavə (təkrar) ali təhsilin qaydalarına uyğun olaraq 2025-2026-cı tədris ilində aşağıdakı ixtisaslar üzrə əlavə (təkrar) ali təhsil almaq üçün əyani və qiyabi şöbəyə tələbə qəbulu elan edir.

| Sıra № | İxtisasın şifri | İxtisasın adı | Təhsil alanların illik təhsil haqqı məbləği (manatla) | |
|---|---|---|---|---|
| | | | Əyani | Qiyabi |
| 1. | 6002006 | Hüquqşünaslıq | | 5000 |
| 2. | 6002015 | Tarix | | 2000 |
| 3. | 6002016 | Tərcümə (ingilis-Azərbaycan dilləri) | | 2000 |
| 4. | 6004004 | İqtisadiyyat | | 3000 |
| 5. | 6004008 | Mühasibat | | 2000 |
| 6. | 6006016 | İnformasiya texnologiyaları | | 2000 |
| 7. | 6002012 | Psixologiya | | 2000 |
| 8. | 6002003 | Dövlət və ictimai münasibətlər | | 2000 |
| 9. | 6006029 | Meliorasiya mühəndisliyi | | 1700 |
| 10. | 6002001 | Beynəlxalq münasibətlər | | 2000 |
| 11. | 6100003 | Tibb | 5000 | |
| 12. | 6003011 | Musiqişünaslıq | | 2000 |
| 13. | 6003009 | İnstrumental ifaçılıq (Xalq çalğı alətləri) | | 2000 |
| 14. | 6002009 | Kitabxanaçılıq və informasiya fəaliyyəti | | 1700 |
| 15. | 6002005 | Filologiya (Azərbaycan dili və ədəbiyyatı) | | 2000 |

Əlavə (təkrar) ali təhsil almaq istəyən şəxslər 30 may-20 avqust 2025-ci il tarixlərdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin *www.portal.edu.az* platformasından qeydiyyatdan keçərək müraciətlərini edə bilərlər. Təkrar ali təhsil yalnız ödənişli formada bağlanmış fərdi müqavilələr əsasında həyata keçirilir. Təhsilini müvəffəqiyyətlə başa vuranlara müvafiq ixtisas üzrə bakalavr peşə-ixtisas dərəcəsi və ali təhsil haqqında dövlət nümunəli bakalavr diplomu verilir.

1993-cü ildən sonra xarici ali təhsil müəssisələrinin məzunları aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamə təqdim etməlidirlər.

Təkrar ali təhsilə qəbul 2 mərhələdə – test və müsahibə əsasında aparılır. Test mərhələsini uğurla keçən namizədlər müsahibə mərhələsinə buraxılacaq. Hər iki mərhələni uğurla keçən namizədlər təkrar ali təhsil almaq hüququ qazanır. İmtahanların tarixi və yeri haqqında məlumatlar namizədlərin şəxsi kabinetlərinə göndəriləcək.

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi, əsas bina***
***Telefon: 036-544-08-61 (Daxili: 1023)***

## Naxçıvanda "Xalq teatrları festivalı – 2025" keçirilir



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə bölgə xalq teatrları hazırladığı sevilən tamaşaları ilə teatrsevənlərin görüşünə gəlir.

Şahbuz Rayon Xalq Teatrı Sahib İbrahimlinin "Sadığın toyu" komediyası əsasında hazırladığı tamaşanı Naxçıvan Dövlət Milli Dram Teatrında teatrsevərlərə təqdim edib.

Şahbuz Rayon Xalq Teatrının rejissoru Emin Hüseynovun quruluş verdiyi səhnə əsərinin quruluşçu rəssamı Səxavət Paşayev, musiqi tərtibatçısı isə Muxtar Bağırovdur.

Tamaşada rolları Emin Hüseynov, İlahə Səfiyeva, Səadət Abdinova, Elbəyi Qəhrəmanov, Zərifə Alməmmədova, Səfər Həziyev, Allahverdi Yolçuyev, Afiyəddin Hacıyev, Vahid Məlikov, İlham Bağırov, Tahir Əsgərov və Əkrəm Baxşəliyev canlandırıblar.

Qeyd edək ki, səhnə əsəri ailə-məişət mövzusunda yazılmış komediyadır.

Tamaşa alqışlarla qarşılanıb.

### Elan

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 4 iyun 2025-ci il tarixli, 174 nömrəli qərarına əsasən iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2025-ci il 27 iyun iş günü ilə 21 iyun istirahət gününün yerlərinin dəyişdirilməsi ilə əlaqədar Yer təkindən istifadə ilə bağlı 27 iyun 2025-ci il tarixdə saat $11^{00}$-da keçirilməsi nəzərdə tutulan hərracın tarixi 30 iyun 2025-ci il saat $11^{00}$-a dəyişdirilmişdir.

### İtmişdir

Şərur rayonu, Çərçiboğan kəndində yaşamış Abbasov İlqar İlyas oğlunun adına olan JN-0029 nömrəli, 10205038 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çomaxtur kənd sakini Məmmədov Əmir Hüseyn oğluna məxsus JN-$351^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Qaraağac kənd sakini Kərimov İlqar Məhərrəm oğlunun adına verilmiş JN-$595^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Yaycı kənd sakini Məmmədov Əli Səməd oğluna məxsus JN-$702^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Səmədov Səməd Bayram oğlunun adına olan 2 oktyabr 2020-ci il tarixdə verilmiş AD-0050038 nömrəli müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun (əsgər) hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Qızılca kənd sakini Əhmədov Sultan Mirzə oğluna məxsus JN-$127^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Allahverdiyeva Nigar Məmmədəli qızının adına 3 may 2021-ci ildə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən verilmiş 315/01 qeydiyyat nömrəli lisenziya itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Abdullayev Neymət Kamil oğlunun adına olan JN-1536 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 162

Nömrəyə məsul: Ramiyə Əkbərova, Ceyhun Məmmədov, Əli Cabbarov
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.